Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 65 (8088) CÜMƏ AXŞAMI, 28 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV böyüklüyü

İLHAM ƏLİYEV xalqa arxalandığı üçün inqilabi islahatlara gedir!

Özünə arxayın olduğu üçün qətiyyətli, bəzən də riskli addımlar atır!

Qəlbi böyük, özü humanist olduğundan hamını bağışlamağı bacarır!

İlham Əliyev qəlbi Azərbaycanla döyünən hər bir insan üçün qiymətlidir, əzizdir, ümid və pənah yeridir!

**Hər bir insan ömrü boyu nə vaxtsa həbsxanaya düşə bilər: ya təsadüfən, yaxud hansısa əməlinə görə!**
**Bu gün hər birimizin həm də sürücü olduğumuzu nəzərə alsaq, bu ehtimalın daim mövcudluğunu etiraf etməliyik!**
**Heç kəs günahsız yerə həbsxanaya salınmır!**
**Əgər bu baş verirsə, deməli, Allah-taala hansısa günahımızın cəzasını bizə çəkdirir!**
**İnsan yalnız həbsxanaya düşəndə azadlığın qiymətini, onun nə olduğunu anlayır!**

*İstədiyin vaxt yatıb-durmaq, ürəyin istəyən yerə getmək, özün bildiyin kimi geyinmək, daim doğmalarının, əzizlərinin əhatəsində olmaq, keyfin istəyəndə tək qalıb özünə qapanmaq və s. - sən demə bunlar böyük nemətdir!*

*Və yalnız onlardan məhrum olandan sonra qədrini, gözəlliyini bilirsən!*

*Kimsənin azadlıqdan məhrum edilməsini arzulamasaq da, cəmiyyət üçün, başqalarının həyatı üçün təhlükə törədənlərin, oğruların həbsxanada qalmasını ədalətli sayaraq qəbul etməliyik.*

❖ ❖ ❖

**Dövlət başçısı İlham Əliyev növbəti əfv fərmanı verdi!**

**Həm də növbəti dəfə humanizm, insanpərvərlik nümayiş etdirdi!**

**Eyni zamanda, belə bir fərman imzalamaqla öz böyüklüyünü də göstərdi:**

- *Novruz bayramı ərəfəsində neçə yüz ailəyə sonsuz sevinc bəxş etdi!*
- *Neçə ananı balaya, atanı oğula, qardaşı bacıya, qardaşı qardaşa qovuşdurdu!*

Uzun müddət idi ki, əfvə hazırlıq gedirdi, əfv komissiyası intensiv iclaslar keçirərək gərgin işləyirdi.

Hamı bilirdi ki, əfv fərmanı veriləcək!

Amma heç kəs onun bu qədər geniş, möhtəşəm, əhatəli olacağını və bütün qütbləri əhatə edəcəyini gözləmirdi!

**İlham Əliyev növbəti dəfə də hamını müsbət mənada təəccübləndirdi, sevindirdi, razı saldı!**

**Hərçənd ki, hamını razı salmaq bir o qədər də asan deyil!**

**Amma dövlət başçısı bunu da bacardı!**

❖ ❖ ❖

*Ən böyük müəllim - həyatdır, demişlər!*

*Amma hamı müəlliminin öyrətdiklərini öyrənmir, dediklərindən lazımi və düzgün nəticə çıxarmır!*

Bəziləri həbsxananı "universitet" adlandırırlar.

Amma oradan öyrənənlərlə bərabər, öyrənməmiş çıxanlar da olur!

Vay o gündən ki, yaramaz şeylər öyrənib çıxasan!

Belədə gərək özgələrdən yox, özündən inciyəsən!

❖ ❖ ❖

Hamı bu əfvi gözləsə də, yenə qeyri-adi hadisə kimi qarşılandı, böyük reaksiya doğurdu, müxtəlif rəylərə səbəb oldu. Səbəb həm də bu dəfə müxtəlif "hüquq müdafiəçiləri siyahılarında" adları hallandırılan 50-dək məhbusun, AXCP sədrinin müavinlərinin və başqalarının buraxılması idi!

**Həm də Prezident bunları özü bağışlamışdı!**

**Xatırladırıq ki, amnistiya zamanı insanlar məhkum olunduqları maddələr üzrə cəzadan azad edilirlərsə, əfvdə adları ilə siyahıya salınırlar.**

Şübhəsiz yenə də ən obyektiv və yüksək qiyməti Azərbaycan xalqı verdi!

(Bu mühüm aksiyaya və onun icrasına bütün televiziya kanalları, elektron KİV və internetə müxtəlif vasitələrlə qoşulanlar geniş yer ayırdıqlarından hər şeyi görmək və müəyyən qənaətə gəlmək mümkün idi.)

*İnsanlar İlham Əliyevin bu addımını da yüksək dəyərləndirərək minnətdarlıqla qarşıladılar!*

*Əfv edilənlərin ailə üzvləri və özləri jurnalistlərə müsahibələrində sevinc və təşəkkürlərini səmimiyyətlə ifadə etdilər.*

*Müxalifət təmsilçiləri, bir sıra tanınmışlar müsbət fikir və rəylərini bildirdilər.*

Təbii ki, belə məqamda istisnalar da ola bilərdi və oldu da!

Heç kəsin gözləmədiyi halda radikal müxalif ovqatlı "bloger" Emin Milli maraqlı açıqlama ilə çıxış etdi: *"Bu gün İlham Əliyevi ictimai fikrə önəm verərək, belə bir addım atdığı üçün təbrik edirəm".*

Emin Millinin digər qiymətləndirməsinə baxaq: *"Demokratik ölkələrdə hər zaman ictimaiyyətin fikri nəzərə alınır və heç bir Prezident buna diqqət ayırdığı üçün zəif, gücsüz hesab edilmir".*

Burada isə *"zəif, gücsüz hesab edilmir"* fikrinin altından xətt çəkərək hələlik digər məsələyə keçirik.

❖ ❖ ❖

Diqqətimizi ən çox çəkən keçmiş müxalifətçi, hazırda "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu ilə sabiq iqtidar nümayəndəsi, yenicə azadlığa çıxmış Əli İnsanovun açıqlamaları oldu.

Vaxtilə müxtəlif qütblərin təmsilçiləri olan və məhbəs yolu keçən iki şəxsin baş verənlərə münasibəti və Prezident fərmanını qiymətləndirmələri bu gün də bir-birindən kəskin şəkildə fərqlənir.

Ancaq ciddi və prinsipial yerdəyişməsilə!

Rauf Arifoğlu əfv fərmanını Prezident İlham Əliyevin başladığı islahatların davamı, həm də inqilabi addımlar kimi qiymətləndirir: *"Prezident İlham Əliyev son 75 gündə bir prezidentlik müddətinə sığa biləcək inqilabi dəyişikliklər edib".*

Və öz üslubunda müəyyən nəticəyə gələrək qərar da verir: *"Çörəyi" demokratiyadan çıxan hər kəs İlham Əliyevə dəstək olmalı, onun islahatlarının davamlılığında, daha da dərinləşməsində maraqlı olmalıdırlar. Olmayacaqlarsa, deməli, onlar demokrat deyillər, açılım istəmirlər və ölkələrini, demokratiyanı yox, başqa şeyləri düşünürlər. Ya da yad maraqların daşıyıcılarıdırlar".*

Rauf Arifoğlu ilə tam razıyam!

Həm də başı daşdan-daşa dəymiş bir insanın hadisələrə daha obyektiv, həm də vətənpərvərlik mövqeyindən yanaşmasından, düzgün mühakimə yürütməsindən məmnunluq duyuram!

❖ ❖ ❖

Həkim üçün ən böyük vəzifə yaşadığı ölkənin səhiyyə naziri postuna yüksəlməkdir (həkimlik və insanlıq borcunu bir tərəfə qoyuruq).

*Əgər insan ona göstərilən etimadı doğrultmursa, şəxsi maraq və mənafeyini hər şeydən uca tutursa, bir ayağı burada, digəri gorda olduğu zamanda "oğru qanunları" ilə yaşamağa keçirsə, beləsinə nə deyəsən?!*

Amerika və Avropa qarşısında səcdəyə gedən bu insan az qala deyəcəkdi ki, məni ABŞ Prezidenti Tramp azad etdi!

Elə ilk müsahibəsində hikkə göstərdi, yalnız acı gülüş doğuracaq iddiada olduğunu bəyan etdi!

**Yalnız özündən və əməllərindən xəbərsizlər belə danışarlar!**

Ancaq Azərbaycan xalqı korrupsiyaya uğramış sabiq səhiyyə nazirinin əməllərini unutmayıb!

*Görünür içəridə olduğu dövrdə bayırdan xəbəri olmayıb!*

*Azərbaycanda gedən dəyişikliklərdən, xalqın hansı mövqedə dayandığından məlumatı yoxdur!*

**Bu gün İlham Əliyev heç kimdən və heç nədən qorxmadan, heç bir təsir və təzyiq cəhdindən çəkinmədən inam və qətiyyətlə islahatlar aparır, müstəqil Azərbaycanı yenidən qurur və gücləndirir!**

*Yalnız özləri qorxaq olanlar başqasının qorxa biləcəyini zənn edərlər!*

**İlham Əliyev daim xalqının yanındadır, daim xalqı üçün çalışır, xalqın arzu və istəklərini reallaşdırır.**

86 faiz səslə Prezident seçilməsindən hələ bir il keçməyib!

Xalqın belə yüksək dəstəyini alan rəhbər də xalqına inandığı və özünə güvəndiyi üçün qüdrətlidir!

Həm də İLHAM ƏLİYEV:

- *Xalqa arxalandığı üçün inqilabi islahatlara gedir!*
- *Özünə arxayın olduğu üçün qətiyyətli, bəzən də riskli addımlar atır!*
- *Qəlbi böyük, özü humanist olduğundan hamını bağışlamağı bacarır!*
- *Bu gün bütün Türk dünyasının fəxr etdiyi İlham Əliyev qəlbi Azərbaycanla döyünən hər bir insan üçün qiymətlidir, əzizdir, ümid və pənah yeridir!*

PREZİDENT İLHAM ƏLİYEV:

- *Xarici siyasətdə uzaqgörən, səhvsiz və əvəzsizdir;*
- *Daxili siyasətdə çevik və alternativsizdir;*
- *Dövlət rəhbəri kimi müdrik, şəxsiyyət kimi əzəmətlidir;*
- *Müstəqil Azərbaycanın inkişaf, sabitlik və əmin-amanlıq qarantıdır.*

Biz onun böyüklüyünü təkcə əfv fərmanları imzalayanda deyil, həm də:

- *Qaçqın və məcburi köçkünlərin, şəhid ailələri və müharibə veteranlarının, əlillərin, tələbələrin, təqaüdçülərin sosial qayğılarını ödəyəndə;*
- *Mübariz İbrahimov, Rüfət Əhmədov, Ramin Səfərovla bağlı zəruri addımlar atanda;*
- *Şamaxıdakı zəlzələ zamanı evi uçmuş Saray nənəyə 25 gündə təzə ev tikdirib verəndə;*
- *Xocalı Soyqırımının ildönümləri günlərində ümumxalq yürüşünün önündə addımlayanda;*
- *İşğal altındakı Şuşa məscidinin eynisini Cocuq Mərcanlı kəndində inşa etdirəndə;*
- *Çoxlarının mane olmaq istədikləri transmilli layihələri özü tərəfindən maliyyələşdirərək onlara həyat vəsiqəsi verəndə;*
- *Beynəlxalq təşkilat və qurumların tribunalarında Azərbaycanın maraq və mənafeyini müdafiə edən nitqlər söyləyəndə GÖRMÜŞÜK!*

Hər dəfə də sevmişik, inanmışıq, arxalanmışıq!

Marginallaşmış insanlar dediklərini təkrar etməkdən yorulmurlar!

*Xalqın seçdiyi və sevdiyi dövlət başçıları isə daim irəliyə gedir, xalqı təlatüm və risklərdən qoruyaraq arxasınca aparır, ölkəni firavanlığa qovuşdururlar.*

**Bəxtiyar SADIQOV**



# Azərbaycan yeni dövrə qədəm qoyur, yeniləşir, güclənir

## Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

- Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Novruz bayramı xalqımızın sevimli bayramıdır. Əsrlər boyu Azərbaycan xalqı Novruz bayramını qeyd edir. Bu bayramı biz yaxşı nəticələrlə qarşılayırıq. Azərbaycan uğurla və hərtərəfli inkişaf edir. Qarşıda duran bütün vəzifələr icra edilir. Azərbaycan dövləti dərin milli-mənəvi köklər üzərində qurulubdur. Novruz bayramı bizim milli sərvətimizdir.

Keçən Novruz bayramından ötən dövr ərzində bir çox önəmli hadisələr baş vermişdir. Aprel ayında prezident seçkiləri keçirilmişdir və Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir, böyük dəstək göstərmişdir. Bu dəstəyə və inama görə doğma xalqıma minnətdaram. Mən bu dəstəyi son illər ərzində görülmüş işlərə verilən qiymət kimi qəbul edirəm, eyni zamanda, prezident seçkiləri ərəfəsində elan edilmiş islahatların yeni mərhələsinə göstərilən dəstək kimi qəbul edirəm. Prezident seçkilərindən sonra genişmiqyaslı islahatlar aparılmağa başlanmışdır. Bu islahatların nəticələrini Azərbaycan xalqı artıq görür və bundan sonra da görəcəkdir.

Novruz bayramından iki ay sonra ölkəmizin həyatında çox önəmli hadisə baş vermişdir. May ayında "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olmuşdur. Bu, tarixi layihədir. Bu layihənin icrası ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcək, bizim siyasi və iqtisadi maraqlarımızı qoruyacaq. May ayında digər böyük layihə istifadəyə verildi, biz Ələt Beynəlxalq Dəniz Ticarət Limanının açılışını qeyd etdik. Bu limanın və 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətə başlaması Azərbaycanı Avrasiya məkanında önəmli beynəlxalq nəqliyyat mərkəzinə çevirib. Biz bu gün uğurla Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəaliyyətinə təkan veririk. Azərbaycan hər iki layihədə uğurla fəaliyyət göstərir. Deyə bilərəm ki, bu layihələrdə 10-dan çox ölkə iştirak edir, ancaq yalnız bir ölkə - Azərbaycan həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizlərində fəal iştirak edir və bir çox təşəbbüslərin müəllifi olmuşdur.

İyun ayında digər tarixi hadisə baş vermişdir - TANAP qaz kəmərinin açılışı mərasimi keçirilmişdir. Bu layihənin həyata keçirilməsi bütövlükdə "Cənub qaz dəhlizi"nin fəaliyyətə başlaması üçün əsas şərtdir. Biz bu tarixi hadisəni uğurla qeyd etdik və bu gün Azərbaycan qazının əlavə həcmi TANAP xətti ilə dünya bazarlarına nəql edilir.

*Ardı 2-ci səh.*



# 49 yaşlı "Bakmil"in müasir siması

Bax: səh. 2

# "Luxus-Plus" portalı Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfərindən yazıb

Fransanın **https://luxus-plus.com** portalında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu ölkəyə səfəri ilə bağlı "Fransa-Azərbaycan: uzun tarixi, iqtisadi əməkdaşlıq" adlı məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfəri çərçivəsində iki ölkə arasında tərəfdaşlıq məsələlərinin müzakirə olunmasından yazılıb. Ölkəmizin iqtisadi və digər sahələrdə böyük potensiala malik olduğu vurğulanıb.

"Qafqazın güclü iqtisadi ölkəsi olan Azərbaycanla siyasi, iqtisadi və mədəniyyət münasibətlərindən necə yan keçmək olar? Fransa yaxşı anlayır ki, dünyanın stabil və regional aparıcı ölkələrinə ehtiyacı var. Buna görə də bu gün güclü iqtisadi inkişafı olan ölkələrlə ikitərəfli münasibətləri təşviq etmək zəruridir", - deyə jurnalist Elen Kuqo diqqətə çatdırıb.

Məqalədə qeyd edilir ki, əlverişli coğrafi mövqeyinə görə Azərbaycan əsas regional mərkəzdir və əsas marağı möhkəm iqtisadiyyata malik olmaqdır.

"Azərbaycan inkişafda olan güclü ölkədir", - deyə ölkəmizi təqdim edən jurnalist son 20 ildə ölkəmizin yalnız karbohidrogen ehtiyatlarına güvənməyərək


FRANCE-AZERBAÏDJAN: UNE COOPÉRATION ÉCONOMIQUE DE LONGUE DATE

Mehriban Aliyeva, la vice-présidente de l'Azerbaïdjan s'est rendue en France à la mi-mars pour discuter des partenariats Franco-Azerbaïdjanais. L'occasion de revenir sur un pays au fort potentiel économique, notamment dans le luxe, avec qui la France entretient des relations historiques.

Comment en effet pourrait-on se passer de relations économiques, politiques et culturelles, avec l'un des nouveaux dragons de la région du Caucase, l'Azerbaïdjan ? L'hexagone l'a bien compris : le monde a besoin de pays stables et de moteurs régionaux. Il est donc nécessaire de favoriser les échanges bilatéraux avec des pays en forte croissance, partis de rien il y a encore trente ans.

La situation géographique de l'Azerbaïdjan, en fait un **pivot régional fondamental** : coincé entre l'Arménie, l'Iran, la Turquie, la Géorgie et la Russie, Bakou a tout intérêt à avoir une économie solide

photo: Mehriban Aliyeva, Vice Présidente d'Azerbaïdjan avec Edouard Philippe, Premier Ministre français

iqtisadiyyatın bütün sektorlarını şaxələndirdiyini diqqətə çatdırıb.

Ölkəmizin kənd təsərrüfatının inkişafından söz açılaraq bir çox yerli məhsulların ABŞ-dan tutmuş Yeni Zelandiyaya qədər dünyanın müxtəlif ölkələrinə ixrac edildiyi vurğulanıb. Azərbaycan şərablarının məşhur olmasından yazılıb.

Eyni zamanda, ölkəmizin ağır sənaye, logistika, ticarət, maliyyə xidmətləri, informasiya texnologiyaları kimi sahələrin inkişafından danışılıb.

Azərbaycanın dünya iqtisadi rəqabətlilik baxımından 37-ci yerdə qərarlaşdığı qeyd edilib. Ölkəmizin strateji geosiyasi məkanda yerləşdiyi, işsizliyin həcminin aşağı olduğu, bütün nəqliyyat növləri üzrə infrastrukturun genişləndirildiyi vurğulanıb. Böyük İpək yolunun Bakı üçün keçmiş deyil, gələcək olduğu bildirilib.

Məqalədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa səfərindən və bu ölkənin rəsmi şəxsləri ilə görüşlərindən bəhs olunub. Qeyd edilib ki, görüşlərdə iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı məsələləri müzakirə edilib.

Azərbaycanın Birinci vitse-prezidentinin səfər çərçivəsində görüşdüyü fransız müəssisələrinin nümayəndələri görüşlərin məhsuldar olduğunu, iqtisadi əməkdaşlıq üçün böyük perspektivlərin mövcudluğunu xüsusi qeyd ediblər.

Qafqaz regionunda Azərbaycanın Fransanın birinci iqtisadi tərəfdaşı olduğu vurğulanıb.

Qeyd edək ki, iqtisadiyyat üzrə ixtisaslaşmış "Luxus-Plus" portalının eyni adlı jurnalı da dərc olunur.



# Azərbaycan yeni dövrə qədəm qoyur, yeniləşir, güclənir

## Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

*Əvvəli 1-ci səh.*

Biz keçən il üçüncü peyki orbitə buraxdıq və bir daha göstərdik ki, texnoloji baxımdan Azərbaycan çox uğurla, sürətlə inkişaf edir. Kosmik sənayenin inkişafı bizim prioritetlərimizdən biridir.

Keçən il biz regionların sosial-iqtisadi inkişafına dair III Dövlət Proqramının icrasını təmin etdik. Proqram artıqlaması ilə icra edildi və üç proqramın icrası böyük dəyişikliklərə gətirib çıxardı. Biz, demək olar ki, bütün infrastruktur layihələrimizi yenidən qurduq. Azərbaycan infrastruktur baxımından çox sürətlə inkişaf edir. Təkcə onu demək kifayətdir ki, biz üç proqram çərçivəsində elektrik enerjisini ixrac etməyə başlamışıq, ölkə daxilində təminat tam təşkil edilir. Baxmayaraq ki, əvvəlki illərdə biz idxaldan asılı idik. Biz qazlaşdırmanı 95 faizə çatdırmışıq və bu, dünya miqyasında ən böyük, ən yüksək göstəricilərdən biridir. Şəhərlərimizin əksəriyyətinə təmiz içməli su xətləri çəkildi və bu proses davam etdirilir. On beş min kilometr yeni yol çəkildi və Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, yol infrastrukturunun səviyyəsi, keyfiyyəti baxımından Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Sosial infrastruktur obyektləri inşa olundu, 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikildi və ya yenidən quruldu. İki milyondan çox yeni iş yeri yaradılmışdır. Əhali isə 1,6 milyon artmışdır.

Bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Azərbaycan bu gün bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlər qurub. Bir çox hallarda Azərbaycan çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarıdır. Qonşu dövlətlərlə əlaqələrimiz yeni mərhələyə qədəm qoyub. Hər bir ölkə üçün qonşularla münasibətlərin inkişafı xüsusi əhəmiyyət daşıyır. Çox şadam ki, biz qonşu ölkələrlə səmərəli, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik. Müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir. İslam həmrəyliyinə verdiyimiz töhfə bütün müsəlman aləmində yüksək qiymətləndirilir.

Keçən ilin yay aylarında Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədi paraflandı. Bu, çox önəmli sənəddir. Xüsusilə nəzərə alsaq ki, orada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi paraqraflar var, xüsusi fikirlər əks olunub. Bu, əlbəttə ki, çox önəmli məsələdir, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bunun çox böyük əhəmiyyəti var.

Münaqişənin həllinə gəldikdə, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim tarixi diyarımızdır və münaqişənin tezliklə həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında olmalıdır. Bilirsiniz ki, Ermənistan tərəfi danışıqlar formatının dəyişdirilməsi ilə bağlı məsələlər qaldırıb. Ancaq, təbii ki, Azərbaycan bunu qəbul edə bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədr ölkələrinin səfirləri - Amerika, Fransa, Rusiyanın nümayəndələri ciddi bəyanat verərək bildirdilər ki, format dəyişməz olaraq qalmalıdır. Həmçinin Avropa İttifaqının yüksək vəzifəli şəxsləri oxşar bəyanatla çıxış etmişlər. Yəni bu, Ermənistana birmənalı ciddi siqnaldır, eyni zamanda onu göstərir ki, Azərbaycanın mövqeyi daha da böyük dəstək qazanır.

Münaqişənin həlli regionda sülhün, sabitliyin təmin olunmasına gətirib çıxaracaq. Əlbəttə, Azərbaycan çalışır və çalışacaq ki, bu məsələ tezliklə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapsın.

Biz bununla bərabər, əlbəttə ki, öz hərbi gücümüzü artırırıq. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya nümayiş etdirib. Bu il və bundan sonrakı illərdə biz ordu quruculuğu üçün nə lazımsa onu da edəcəyik. Bizim hərbi hissələrimizin, demək olar ki, mütləq əksəriyyəti yenidən qurulub. Azərbaycan Ordusu ən müasir texnika ilə təchiz edilir və döyüş qabiliyyətimiz gündən-günə artır. Bu gün Novruz bayramını o cümlədən Cocuq Mərcanlıda qeyd edirlər. Cocuq Mərcanlının qurulması, bərpası, yenidən oraya həyatın qayıtması bizim tarixi nailiyyətimizdir. Cocuq Mərcanlı bu gün Azərbaycan xalqının əyilməz ruhunun təzahürüdür.

Bildiyiniz kimi, bu gün Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoyub. İslahatlar hərtərəflidir. İqtisadi islahatlar bizə imkan verir ki, əlavə gəlirlər əldə edilsin və büdcə gəlirlərimiz artıb. Bu ilin yanvar-fevral aylarında büdcə daxilolmaları 150 milyon manat səviyyəsində artıbdır. Bu, bizə imkan verir ki, həmin vəsaiti sosial layihələrə yönəldək. Qeyd etdiyim kimi, ciddi islahatlar üzərində işlər keçən il prezident seçkilərindən sonra başlamışdır. Bu gün isə çox ciddi sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan öz maddi vəziyyətini, maliyyə vəziyyətini yaxşılaşdırmış olur. Bildiyiniz kimi, minimum əməkhaqqı və minimum pensiya təxminən 40 faiz artmışdır. Sosial müavinətlər təqribən orta hesabla iki dəfə artmışdır. Köçkünlərə verilən müavinət 50 faiz artmışdır. Tələbələrin təqaüdləri, şəhid ailələrinə verilən müavinətlər, digər sosial ödənişlər artıb. Çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı müvafiq fərman imzalanıb. Problemli kreditlərin həlli ilə bağlı çox ciddi fərman imzalanıb. Onu deyə bilərəm ki, bu fərmanın dünyada bənzəri yoxdur və bu fərman 800 min insanı əhatə edir. Yəni Azərbaycan dövləti bir daha göstərir ki, öz vətəndaşının yanındadır.

Bizim iqtisadi gücümüz artdıqca sosial məsələlər daha da geniş miqyasda öz həllini tapacaqdır. İqtisadi artım isə göz qabağındadır. Bu ilin iki ayında ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son illər ərzində ən yüksək göstəricidir. Sənaye istehsalı 4,6 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Ancaq ən böyük artım qeyri-neft sektorunda sənaye istehsalına aiddir. Burada artım 15,5 faizdir. Hesab edirəm ki, bu, dünya rekordudur və son illər ərzində aparılan düşünülmüş ciddi iqtisadi islahatlar siyasətinin nəticəsidir.

İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir.

Mən tam əminəm ki, bu ili biz uğurla başa vuracağıq. Bundan sonra Azərbaycan yalnız və yalnız inkişaf və tərəqqi yolu ilə gedəcək, vətəndaşların sosial vəziyyəti ildən-ilə yaxşılaşacaq.

Əziz həmvətənlər, sizi bu gözəl Bahar bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun.

# İlham Əliyev Qazaxıstan xalqının lideri və yeni prezidenti ilə telefonla danışıb





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 20-də Qazaxıstan xalqının lideri, Təhlükəsizlik Şurasının sədri Nursultan Nazarbayevə telefonla zəng edib.

Dövlətimizin başçısı Nursultan Nazarbayevin prezidentlik fəaliyyəti dövründə Qazaxıstanın inkişafı, firavanlığı və əmin-amanlığının təmin olunması istiqamətində yorulmaz səylər göstərdiyini vurğulayıb, onun xalqımızın ümummilli lideri Heydər Əliyevlə dostluq münasibətlərinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin əsasını qoyduğunu qeyd edib. Prezident İlham Əliyev Nursultan Nazarbayevə gələcək fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Nursultan Nazarbayev göstərilən diqqətə və xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Nursultan Nazarbayev Azərbaycan ilə Qazaxıstan arasında dostluq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

❖❖❖

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 20-də Qazaxıstan Prezidenti vəzifəsində fəaliyyətə başlamış Kasım-Jomart Tokayevə telefonla zəng edib.

Prezident İlham Əliyev Kasım-Jomart Tokayevi prezident vəzifəsində fəaliyyətə başlaması münasibətilə təbrik edib, ona Qazaxıstanın inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Kasım-Jomart Tokayev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluqlarını bildirib, əlaqələrimizin gələcəkdə də inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## Birinci vitse-prezident Mehriban Əliyeva Dariqa Nazarbayevanı təbrik edib





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva xanım Dariqa Nazarbayevanı Qazaxıstan Respublikası Parlamenti Senatının sədri seçilməsi münasibətilə təbrik edib.

# 49 yaşlı "Bakmil"in müasir siması









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan "Bakmil" stansiyasında yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov görülən işlər barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, burada 2017-ci ilin avqustundan mərhələli şəkildə yenidənqurma işlərinə başlanılıb. Bura 1970-ci ildə açılıb və 9 il "Nərimanov" elektrik deposunun platforması olub. 1979-cu ildən isə stansiya kimi fəaliyyətə başlayıb. Müasir səviyyədə yenidən qurulan stansiyanın əsas memarlıq görkəmi saxlanılaraq infrastrukturu və fasadı tamamilə yenilənib. Giriş-çıxışı birbaşa ikinci mərtəbədən olan "Bakmil" Bakı Metropoliteninin yeganə yerüstü stansiyasıdır. Yenidənqurma zamanı stansiyanın fəaliyyətini dayandırmamaq məqsədilə təmir-bərpa prosesi mərhələlərlə aparılıb. Yalnız ötən ilin avqustundan işlərin son mərhələsində sərnişinlərin stansiyadan istifadəsinə günün müəyyən saatlarında məhdudiyyətlər qoyulub. Stansiyada monolit dəmir-beton konstruksiyalı sərnişin platforması inşa edilib ki, bu da əvvəlkindən daha etibarlı, davamlı və uzunömürlüdür. Stansiyanın təmirdən sonra ən mühüm yeniliyi sərnişinləri birbaşa ikinci mərtəbədə - platforma səviyyəsində qəbul etməsidir ki, bunun sayəsində də birinci mərtəbə yalnız xidməti sahəyə çevrilib.

Bundan başqa, əhəmiyyətli yeniliklərdən biri də açıq hava şəraitində yerləşən stansiya yolunun çətirlə örtülməsidir. Platforma boyunca bütün yol sahəsini əhatə edən çətir sərnişinləri və qatarları yağışdan qorumaqla yanaşı, burada gecə vaxtlarında qatar saxlanılmasına da imkan yaradır. Stansiyada bütün kommunikasiya xətləri təzələnib, yanğın təhlükəsizliyi ilə bağlı ən son texnologiyalara uyğun yeniliklər tətbiq edilib. Gözləmə zalında yeni asma tavan, müasir işıqlandırma və informasiya-məlumat sistemləri, turniketlər quraşdırılıb.

Stansiyanın ətrafında abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb.

## Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətə başlamanız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan və Qazaxıstanı çoxəsrlik dostluq və əməkdaşlıq əlaqələri birləşdirir. Əminəm ki, xeyirxah ənənələrə söykənən bu dövlətlərarası münasibətlərimiz gələcəkdə də xalqlarımızın və ölkələrimizin mənafeyi naminə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə, hörmətli Kasım-Jomart Kemeleviç, möhkəm cansağlığı, xoşbəxtlik və dövlət başçısı vəzifəsində qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 mart 2019-cu il*

## Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Arif Alviyə

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Pakistanı möhkəm dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi qardaş xalqlarımızın iradəsini əks etdirir.

Əminəm ki, ikitərəfli münasibətlərimizin inkişafı, əməkdaşlığımızın bütün sahələrdə dərinləşməsi bundan sonra da xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2019-cu il*

## Yunanıstan Respublikasının Prezidenti zati-aliləri cənab Prokopis Pavlopulosa

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2019-cu il*

## Banqladeş Xalq Respublikasının Prezidenti zati-aliləri cənab Md. Əbdül Həmidə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Banqladeş arasındakı münasibətlər daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2019-cu il*

## İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Həsən Ruhaniyə

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təbii fəlakət nəticəsində insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2019-cu il*

## İraq Respublikasının Prezidenti zati-aliləri cənab Bərham Salehə

Hörmətli cənab Prezident!

Dəclə çayında bərənin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İraq xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 mart 2019-cu il*

## O.S.Sultanova general-leytenant ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi Orxan Sedyar oğlu Sultanova general-leytenant ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2019-cu il*

## A.A.Mustafazadənin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında nəşriyyat işi və jurnalistika sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Azər Abdulla oğlu Mustafazadə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart  2019-cu il*

## "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 158; 2002, № 5, maddə 245; 2003, № 12, I kitab, maddə 674; 2007, № 5, maddə 442, № 6, maddə 596; 2016, № 3, maddə 430) aşağıdakı dəyişikliklər edilsin:

1. 12-ci maddənin birinci hissəsində birinci halda "və" sözü ", elektron və digər" sözləri ilə əvəz edilsin.

2. 15-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər (qəzet və jurnal redaksiyaları istisna olmaqla) buraxdığı çap məhsullarının:

- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)  kitabxanasına 3 pulsuz məcburi nüsxəsini;
- profilinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) kitabxanalarına 2 pulsuz məcburi nüsxəsini göndərməlidirlər.

Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnal redaksiyaları buraxdığı qəzet və jurnalların 2 pulsuz məcburi nüsxəsini bu maddənin birinci hissəsində göstərilmiş kitabxanalara göndərməlidirlər.

Sifarişçi ilə nəşriyyat (naşir) arasında bağlanmış müqavilədə nəzərdə tutulduğu halda bu maddədə müəyyən edilmiş məcburi nüsxələrin elektron variantları da kitabxanalara təqdim edilir.

Kitabxanaların pulsuz məcburi nüsxələrlə (o cümlədən onların elektron variantları ilə) təchizatı qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Kitabxana fondunun tərkibinə daxil olan obyektlərdən istifadə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral  2019-cu il*

## Lənkəran rayonunun Hirkan-Mamusta-Siyavar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On bir min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən  Hirkan-Mamusta-Siyavar avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,9 milyon (iki milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2019-cu il*

## Azərbaycan Prezidentinin və Ermənistan baş nazirinin Vyanada görüşü keçiriləcək

ATƏT-in Minsk qrupunun həmsədrlərinin təklifi əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə müzakirələr aparmaq məqsədilə martın 29-da Avstriyanın paytaxtı Vyana şəhərində görüşünün keçirilməsi barədə razılıq əldə olunub.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, bu gün Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller aparacaqlar.

## "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsinin birinci və ikinci bəndlərində nəzərdə tutulmuş orqan (qurum) barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin dördüncü hissəsinə uyğun olaraq, kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin:

2.1. birinci hissəsinin birinci və ikinci bəndlərində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2019-cu il*

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621; 2015, № 3, maddə 244, № 4, maddə 358, № 10, maddə 1094; 2016, № 1, maddələr 24, 27, № 4, maddə 639; 2017, № 1, maddə 24, № 7, maddə 1301, № 12, I kitab, maddə 2271; 2018, № 5, maddə 890, № 6, maddələr 1184, 1185; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1417-VQD nömrəli Qanunu) 56-cı maddəsinə aşağıdakı məzmunda 10-cu bənd əlavə edilsin:

"10. Tikinti məqsədləri üçün dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahəsi ayrılarkən (məlumatlandırma icraatı qaydasında yaşayış evlərinin tikintisi üçün ayrılan torpaq sahələri istisna olmaqla) həmin torpaq sahəsində həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin müvafiq ərazinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana, belə plan olmadıqda və ya onun müddəti bitdikdə tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) uyğunluğu barədə rəy verilməsinə görə xeyrinə torpaq sahəsinin ayrılması ilə bağlı müraciət etmiş şəxs müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda və məbləğdə xidmət haqqı ödəyir. Bu bəndin birinci cümləsində nəzərdə tutulmuş xidmət haqqının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hissəsi müvafiq icra hakimiyyəti orqanlarının işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanlarının hesablarına köçürülür. Bu vəsaitin bölgüsü və ondan istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2019-cu il*

## "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1526-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1526-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486; 2000, № 3 (I kitab), maddə 158; 2001, № 12, maddə 755; 2003, № 10, maddə 546; 2004, № 4, maddə 231; 2006, № 8, maddə 660; 2008, № 3, maddə 174, № 8, maddə 714; 2009, № 7, maddə 542; 2012, № 11, maddə 1080; 2014, № 10, maddə 1217, № 12, maddə 1552; 2016, № 2 (II kitab), maddə 239; 2017, № 7, maddə 1320, № 12 (I kitab), maddə 2342) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "95-ci maddəsinin" sözlərindən əvvəl "56-cı maddəsinin 10-cu bəndinin birinci cümləsində (xidmət haqqının məbləğinə münasibətdə)," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. həmin məcəllənin 56-cı maddəsinin 10-cu bəndinin birinci (xidmət haqqının ödənildiyi hallara münasibətdə) və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.3. 2.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.7-2.9-cu bəndlər əlavə edilsin:

"2.7. həmin məcəllənin 56-cı maddəsinin 10-cu bəndinin ikinci cümləsində "müvafiq icra hakimiyyəti orqanlarının işçiləri" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin işçiləri nəzərdə tutulur;

2.8. həmin məcəllənin 56-cı maddəsinin 10-cu bəndinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər;

2.9. həmin məcəllənin 56-cı maddəsinin 10-cu bəndinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini vəsaitlərin orqanlar arasında bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitlərdən istifadə qaydası hissəsində Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin işçilərinə münasibətdə) həyata keçirirlər.".

4. Müəyyən edilsin ki, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması, aparatının və regional bölmələrinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 446 nömrəli Fərmanının 4.2-ci bəndinə uyğun olaraq, müvafiq vəsaitdən istifadənin vahid qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilənədək Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 56-cı maddəsinin 10-cu bəndinin üçüncü cümləsində nəzərdə tutulmuş vəsaitlərdən istifadənin qaydasını, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi müəyyən edir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2019-cu il*

# Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2014, № 7, maddələr 766, 787, № 10, maddə 1165; 2015, № 5, maddə 503; 2016, № 2 (II kitab), maddə 215, № 11, maddə 1773, № 12, maddə 2010; 2017, № 2, maddə 154, № 5, maddə 755, № 6, maddələr 1019, 1043; 2018, № 3, maddə 373, № 5, maddələr 837, 850; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli, 1406-VQD və 1451-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 11.5-ci maddə əlavə edilsin:

"11.5. Tikinti layihələrinin şəhərsalma sənədlərinə uyğunluğunun yoxlanılmasına, habelə siyahısını, məbləğini və tətbiqi hallarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tikinti fəaliyyəti sahəsində müvafiq qurumlar tərəfindən göstərilən digər xidmətlərə görə haqq ödənilir.".

2. 75-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"75.1. Barəsində icazə tələb olunan tikinti şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə zidd olmadığı təqdirdə müvafiq icra hakimiyyəti orqanı (qurum) (reklam qurğularının tikintisinə istisna olmaqla) tikintiyə icazə verməlidir. Reklam qurğularının tikintisinə icazənin verilməsi qaydası bu məcəllənin 81-ci maddəsi ilə müəyyən edilir. Tikintiyə icazə müvafiq tikinti ərazisi üçün qüvvədə olan müfəssəl plan əsasında verilir. Belə plan olmadıqda və ya onun müddəti bitdikdə tikintiyə icazə verilməsinin mümkünlüyü bu məcəllənin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə əsasən yoxlanılır.

75.2. Sifarişçi tikintiyə icazə almaq üçün müraciət etməzdən əvvəl tikinti aparmaq istədiyi ərazidə aparılacaq tikintinin icazə verilən parametrlərini (ərazinin tikinti əmsalı, ərazinin tikinti sıxlığı əmsalı, tikinti obyektlərinin hündürlüyü və s.) öyrənmək məqsədi ilə obyektin təyinatını göstərməklə müvafiq icra hakimiyyəti orqanına (quruma) sorğu ilə müraciət edə bilər. Həmin müraciətə 10 gün müddətində əsaslandırılmış cavab verilməlidir.

75.3. Sifarişçi tikintiyə icazə almaq üçün müvafiq icra hakimiyyəti orqanına (quruma) ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

75.3.1. torpaq sahəsi üzərində tikinti aparılmasına səlahiyyət verən mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti;

75.3.2. tikinti layihəsi;

75.3.3. sifarişçi hüquqi şəxs olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti fiziki şəxs olduqda şəxsiyyətini təsdiq edən sənədin surəti.

75.4. Müvafiq icra hakimiyyəti orqanı (qurum) tikintiyə dair ərizənin və tikinti layihəsinin təqdim edildiyi vaxtdan 3 iş günü, ekspertizadan keçirilməsi tələb olunmayan tikinti layihələrinə münasibətdə isə 2 iş günü ərzində bu məcəllənin 75.3-cü maddəsində nəzərdə tutulmuş sənədlərin tamlığını yoxlayır. Sənədlər tam təqdim olunmadıqda, müvafiq icra hakimiyyəti orqanı (qurum) onların tamamlanması üçün zəruri hərəkətlər barədə ərizəçiyə dərhal məlumat verir və bu məqsədlə 10 gün müddət təyin edir. Sənədlərin tamlığının təmin edilməməsinin hüquqi nəticələri ərizəçiyə izah olunur.

75.5. Tikintiyə dair sənədlərin tamlığı təmin edildikdən sonra müvafiq icra hakimiyyəti orqanı (qurum) aşağıdakıları təmin edir:

75.5.1. tikinti layihəsinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) uyğun olub-olmaması barədə rəy verilməsini;

75.5.2. bu məcəllənin 75.5.1-ci maddəsinə müvafiq olaraq tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğunluğu barədə rəy müsbət olduğu təqdirdə - bu məcəllənin 75.6-cı maddəsində qeyd edilən tikintiyə icazə ilə fəaliyyət sferasına (maraqlarına) toxunulan digər aidiyyəti qurumlara rəy bildirilməsi üçün sorğu göndərilməsini.

75.6. Tikintiyə icazə ilə fəaliyyət sferasına (maraqlarına) toxunulan qurumları tikintinin təyinatına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

75.7. Bu məcəllənin 75.5.1-ci maddəsində göstərilən rəy 5 iş günü müddətində, 75.5.2-ci maddəsində göstərilən sorğuya isə layihəsi ekspertizadan keçirilməsi tələb olunan obyektlərə münasibətdə 15 gün, layihəsi ekspertizadan keçirilməsi tələb olunmayan obyektlərə münasibətdə 5 gün müddətində bildirilməlidir. Bu müddətlər ərzində göstərilən rəylər bildirilmədikdə, müvafiq icra hakimiyyəti orqanı (qurum) iradların olmaması prezumpsiyasından çıxış edir. Tikinti layihəsinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana belə plan olmadıqda və ya onun müddəti bitdikdə tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) uyğun olmaması barədə rəy tikintiyə icazə verilməsindən imtina üçün əsasdır.

75.8. Müvafiq icra hakimiyyəti orqanı (qurum), layihəsinin ekspertizadan keçirilməsi tələb olunmayan tikintiyə dair ərizəyə aidiyyəti qurumlardan daxil olmuş rəyləri nəzərə almaqla 15 iş günü müddətində baxır və tikintiyə icazə verilməsi və ya icazə verilməsindən imtina edilməsi barədə qərar qəbul edir.

75.9. Tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğunluğu barədə rəy müsbət olduğu təqdirdə müvafiq icra hakimiyyəti orqanı (qurum) layihəsi ekspertizadan keçirilməsi tələb olunan tikintiyə icazə icraatı çərçivəsində tikinti layihələrini ekspertizadan keçirmək üçün ekspertiza müəssisəsinə göndərir.

75.10. Müvafiq icra hakimiyyəti orqanı (qurum), layihəsinin ekspertizadan keçirilməsi tələb olunan tikintiyə dair ərizəyə aidiyyəti qurumlardan daxil olmuş rəyləri nəzərə almaqla, 1 ay (bu məcəllənin 90.2-ci maddəsində ekspertiza müddətinin uzadılması üçün nəzərdə tutulan hallar istisna olmaqla) müddətində baxır və tikintiyə icazə verilməsi və ya icazə verilməsindən imtina edilməsi barədə qərar qəbul edir. Şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə əməl olunmasını təmin etmək məqsədilə tikintiyə icazədə siyahısını və tətbiqi hallarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əlavə şərtlər də nəzərdə tutulur.

75.11. Tikintiyə icazə verildiyi halda tikintiyə icazənin surəti, habelə tikinti layihəsinin bir nüsxəsi ərizəçiyə təqdim edilir və belə icazə tikinti işlərinə başlanması üçün əsas hesab olunur. Tikintiyə icazədə tikintiyə başlanılması üçün siyahısını və tətbiqi hallarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əlavə şərtlər nəzərdə tutulduğu hallarda həmin əlavə şərtlərin yerinə yetirilməsindən sonra ərizəçiyə xüsusi nişan təqdim edilir və bu halda xüsusi nişan tikinti işlərinin başlanmasına əsas hesab edilir. Tikinti işlərinin başlanması üçün əlavə şərtlər olduqda tikintiyə icazədə mütləq göstərilməlidir. Tikintiyə icazənin, xüsusi nişanın formasını və məzmununu müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Bu məcəllənin 75.4-cü maddəsinə uyğun olaraq sənədlərin tamamlanması üçün zəruri hərəkətlər barədə ərizəçiyə məlumat verildiyi gündən sənədlərin tamlığı təmin edildiyi günədək olan müddət tikintiyə icazə icraatı üçün nəzərdə tutulmuş müddətə daxil edilmir.

75.12. Tikintiyə icazədən irəli gələn hüquq və vəzifələr sifarişçinin hüquqi varislərinə də şamil olunur.

75.13. Tikintiyə icazə barədə qərarın əsli və tikinti layihəsinin bir nüsxəsi müvafiq icra hakimiyyəti orqanında (qurumda) saxlanılır. Bu qayda barəsində məlumatlandırma icraatının aparıldığı obyektlərin tikinti layihəsinə də şamil edilir.

75.14. Tikintiyə icazə verən müvafiq icra hakimiyyəti orqanı (qurum) icazədə nəzərdə tutulmuş məlumatları 3 iş günü müddətində vahid informasiya təminatı sisteminin tərkib hissəsi olan Tikintilərin Dövlət Reyestrinə təqdim edir. Həmin məlumatlar 3 iş günü ərzində Tikintilərin Dövlət Reyestrinin internet saytında yerləşdirilir.

75.15. Tikintiyə və tikinti obyektinin istismarına icazə verilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyənləşdirir.".

3. 81.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"81.2. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum reklam qurğularının tikintisinə icazənin verilməsi ilə bağlı bu məcəllənin 75.4-cü, 75.5-ci, 75.8-ci, 75.11-ci, 75.14-cü və 82.1-ci maddələrində nəzərdə tutulmuş tədbirləri görür.".

4. 86.1.5-ci maddədə "75.7-ci" sözləri "75.11-ci" sözləri ilə əvəz edilsin.

5. 106-cı maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Bu məcəllənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan vəsaitin 50 faizi, həmçinin bu məcəllənin 11.5-ci maddəsinə əsasən toplanan haqqın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hissəsi müvafiq icra hakimiyyəti orqanlarının işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanlarının hesablarına köçürülür. Bu vəsaitin bölgüsü və ondan istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2019-cu il*

# Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının yaranmasının 100 illik yubileyi münasibətilə və milli təhlükəsizliyin təmin edilməsində, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınmasında, beynəlxalq terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa, dini ekstremizmə qarşı mübarizədə fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Xələfov Rauf Rafiq oğlu - general-mayor
Qulubəyov Mamay Maqsud oğlu - polkovnik
Mansurov Həsən İsa oğlu - ədliyyə general-mayoru
Musayev İlqar Əli oğlu - general-mayor
Muxtarov Rövşən Nadir oğlu - polkovnik
Nağıyev Sahib Novruz oğlu - general-mayor

**"Vətən uğrunda" medalı ilə**

Aşurov Mönsüm Yaqub oğlu - polkovnik
Bayramov Abbas Musa oğlu - polkovnik
Eynullayev Tağı Bahadur oğlu - polkovnik
Hüseynov Şahin Cəlal oğlu - polkovnik
Kazımov Füzuli Şahsuvar oğlu - mayor
Məmmədov İlqar İsmayıl oğlu - polkovnik
Rzayev Araz Sabir oğlu - polkovnik
Sultanov Samir Sultan oğlu - polkovnik

**"İgidliyə görə" medalı ilə**

Abbasov Asif Nuru oğlu - polkovnik
Cəfərzadə Samir Həşim oğlu - mayor
Əlifov Anar İsmayıl oğlu - kapitan
Əliyev İlham Nəriman oğlu - polkovnik
Kazımov Şahin Yunsur oğlu - polkovnik-leytenant
Qarayev Nicad Kamandar oğlu - polkovnik-leytenant
Məmmədov Rövşən Cahangir oğlu - polkovnik
Teymurov Elşad Elşən oğlu - kapitan

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abdullayev Polad Fərrux oğlu - polkovnik
Babayev Arif Vaqif oğlu - polkovnik
Bayramov Gəray Sabir oğlu - mayor
Hacıyev Əsəd Qurban oğlu - ədliyyə mayoru
Həsənov Samir Tələt oğlu - polkovnik
Hüseynli Fərid Zamin oğlu - kapitan
Qaytaranov Vüqar Məcid oğlu - polkovnik-leytenant
Məmmədli Elnur Çingiz oğlu - polkovnik-leytenant
Məmmədov Fuad Famil oğlu - mayor
Məmmədov Tural Bərşad oğlu - kapitan
Səfərov Ramazan Zakir oğlu - mayor
Vəliyev Heydər Vəli oğlu - mayor.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2019-cu il*

# Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**general-leytenant ali hərbi rütbəsi**
general-mayor İsmayıl Məmmədəli oğlu Bağırova

**general-mayor ali hərbi rütbəsi**
polkovnik Araz Süleyman oğlu Əhmədova
polkovnik Zaur Aydın oğlu Əliyevə
polkovnik Sultan Cavanşir oğlu Fərzəliyevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2019-cu il*

# T.Ə.Cəfərovaya "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının yaranmasının 100 illik yubileyi münasibətilə və musiqi təhsilinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzinin nəzdində orta musiqi məktəbinin müəllimi Tahirə Ənvər qızı Cəfərovaya "Əməkdar müəllim" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2019-cu il*

# "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1525-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1525-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847; 2014, № 10, maddə 1196; 2015, № 3, maddə 270, № 5, maddə 531, № 9, maddə 1006; 2016, № 6, maddə 1059, № 11, maddə 1824; 2017, № 1, maddə 40, № 5, maddə 825, № 11, maddə 2012; 2018, № 3, maddə 417, № 5, maddə 910, № 8, maddə 1676, № 12 (I kitab), maddə 2616) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.6.18-ci yarımbənddə "75.6-cı" sözləri "75.10-cu" sözləri ilə əvəz edilsin;

3.2. 4.1-ci, 4.2-ci, 4.7-1-ci (birinci abzası) və 4.7-3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11.5-ci, 13-cü maddəsində (ikinci halda), 20.4-cü maddəsinin ikinci cümləsində (ikinci halda), 24.1-ci maddəsində (ikinci halda), 24.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 34.2-ci maddəsində (ikinci halda), 34.4-cü maddəsinin birinci cümləsində (ikinci halda), 35.1-ci maddəsinin birinci cümləsində (ikinci halda) və üçüncü cümləsində (ikinci halda), 35.3-cü (ikinci halda) və 38-ci (ikinci halda) maddələrində, 40-cı maddəsinin ikinci cümləsində (ikinci halda), 41-ci maddəsində (ikinci halda), 42.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 43.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 43.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 43.3-cü (ikinci halda), 44.1-ci (ikinci halda), 44.3-cü (ikinci halda), 47.3-cü maddələrində, 47.4.5-ci (ikinci və üçüncü hallarda), 47.4.6-cı (ikinci və üçüncü hallarda), 48.3.1-ci (ikinci halda), 48.3.3-cü (ikinci halda) maddələrində, 48.3.5-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 49.2.11-ci maddəsində (ikinci halda), 66.3-cü maddəsinin ikinci cümləsində (ikinci halda), 75.15-ci, 76.1-ci (ikinci halda), 76.2-ci (ikinci halda) maddələrində, 80.4-cü maddəsinin birinci cümləsində (ikinci halda) və ikinci cümləsində (ikinci halda), 81.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 81.2-ci, 81.4-cü, 82.1-ci (ikinci halda), 82.2-ci (ikinci halda) maddələrində, 84.1-ci maddəsinin birinci cümləsində (ikinci halda), 84.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 84.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 86.1.1-ci maddəsində (ikinci halda), 86.3-cü maddəsinin birinci cümləsində (ikinci halda), 89.2-ci maddəsində (ikinci halda), 90.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda), 90.3-cü (ikinci halda), 90.4-cü, 92.10-cu, 92-1.1-ci, 92-1.2-ci (hər üç halda) maddələrində, 93.1-ci maddəsinin birinci cümləsində (üçüncü halda), 94.3-cü maddəsində (ikinci halda), 95.3-1-ci maddəsinin birinci cümləsində, 95.5-ci (ikinci halda), 95.7-ci, 97.5-ci maddələrində, 101.2-ci maddəsində (ikinci və üçüncü hallarda), 102.2-ci maddəsinin birinci cümləsində (ikinci və üçüncü hallarda), 102.3-cü maddəsinin birinci (ikinci halda) və üçüncü (ikinci halda) cümlələrində, 102.4-cü maddəsində (ikinci və üçüncü hallarda), 102.5-ci maddəsində (ikinci və üçüncü hallarda), 102.6-cı maddəsinin birinci cümləsində (ikinci halda), 102.7-ci maddəsinin birinci cümləsində (ikinci və üçüncü hallarda), 103.2-ci maddəsinin birinci cümləsində (ikinci və üçüncü hallarda), 106-cı maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

4.2. həmin məcəllənin 16.2-ci maddəsində, 20.2-ci maddəsinin üçüncü cümləsində, 22.7-ci, 30.3-cü, 32.2-ci, 32.3-cü, 33.1-ci maddələrində, 33.3-cü maddəsinin üçüncü cümləsində, 34.3-cü maddəsində, 35.1-ci maddəsinin ikinci cümləsində, 55.1-ci maddələrində, 55.2-ci maddəsinin ikinci cümləsində, 57.3-cü, 58.4-cü maddələrində, 63.1-ci maddəsinin ikinci cümləsində, 67.4-cü maddəsinin ikinci cümləsində, 69.8-ci maddəsində, 75.6-cı maddəsində, 75.10-cu maddəsinin ikinci cümləsində, 75.11-ci maddəsinin ikinci və dördüncü cümlələrində, 77.2-ci maddəsinin ikinci cümləsində, 78.1-ci, 78.2-ci, 83.0.5-ci, 83.0.6-cı, 98.3-cü, 101.4-cü, 102.8-ci, 104.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

"4.7-1. həmin məcəllənin 75.1-ci maddəsinin birinci cümləsində (birinci halda), 75.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 75.3-cü maddəsinin birinci cümləsində (birinci halda), 75.4-cü maddəsinin birinci (birinci halda) və ikinci (birinci halda) cümlələrində, 75.5-ci maddəsində, 75.7-ci maddəsinin ikinci cümləsində, 75.8-ci maddəsində, 75.9-cu maddəsində, 75.10-cu maddəsinin birinci cümləsində, 75.13-cü maddəsində, 75.14-cü maddəsinin birinci cümləsində, 76.1-ci (birinci halda), 76.2-ci (birinci halda), 82.1-ci (birinci halda) maddələrində, 84.1-ci maddəsinin birinci cümləsində (birinci halda), 84.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 86.1.1-ci maddəsində (birinci halda), 86.3-cü maddəsinin birinci cümləsində (birinci halda), 101.2-ci maddəsində (birinci halda), 102.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 102.3-cü maddəsinin birinci (birinci halda) və üçüncü (birinci halda) cümlələrində, 102.4-cü (birinci halda), 102.5-ci (birinci halda) maddələrində, 102.7-ci maddəsinin birinci cümləsində (birinci halda), 103.2-ci maddəsinin birinci cümləsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:";

"4.7-3. həmin məcəllənin 13-cü maddəsində, 20.4-cü maddəsinin ikinci cümləsində, 24.1-ci maddəsində, 24.2-ci maddəsinin birinci cümləsində, 34.2-ci maddəsində, 34.4-cü maddəsinin birinci cümləsində, 35.1-ci maddəsinin birinci və üçüncü cümlələrində, 35.3-cü və 38-ci maddələrində, 40-cı maddəsinin ikinci cümləsində, 41-ci maddəsində, 42.1-ci maddəsinin birinci cümləsində, 43.1-ci maddəsinin birinci cümləsində, 43.2-ci maddəsinin birinci cümləsində, 43.3-cü, 44.1-ci, 44.3-cü, 47.4.5-ci (birinci halda), 47.4.6-cı (birinci halda), 48.3.1-ci, 48.3.3-cü maddələrində, 48.3.5-ci maddəsinin ikinci cümləsində, 49.2.11-ci maddəsində, 66.3-cü maddəsinin ikinci cümləsində, 75.1-ci maddəsinin birinci cümləsində, 75.2-ci maddəsinin birinci cümləsində, 75.3-cü maddəsinin birinci cümləsində, 75.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 75.5-ci maddəsində, 75.7-ci maddəsinin ikinci cümləsində, 75.8-ci maddəsində, 75.9-cu maddəsində, 75.10-cu maddəsinin birinci cümləsində, 75.13-cü maddəsinin birinci cümləsində, 75.14-cü maddəsinin birinci cümləsində, 76.1-ci, 76.2-ci maddələrində, 80.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 82.1-ci və 82.2-ci maddələrində, 84.1-ci maddəsinin birinci cümləsində, 84.2-ci maddəsinin birinci cümləsində, 86.1.1-ci maddəsində, 86.3-cü maddəsinin birinci cümləsində, 89.2-ci maddəsində, 90.1-ci maddəsinin ikinci cümləsində, 90.3-cü və 94.3-cü maddələrində, 101.2-ci maddəsində (birinci halda), 102.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 102.3-cü maddəsinin birinci və üçüncü cümlələrində, 102.4-cü maddəsində (birinci halda), 102.5-ci maddəsində (birinci halda), 102.6-cı maddəsinin birinci cümləsində, 102.7-ci maddəsinin birinci cümləsində (birinci halda), 103.2-ci maddəsinin birinci cümləsində (birinci halda) "qurum" dedikdə Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə həyata keçirilən tikinti niyyətlərinə münasibətdə həmin Agentlik nəzərdə tutulur;";

3.3. 4.14-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 4.15-4.18-ci bəndlər əlavə edilsin:

"4.15. həmin məcəllənin 106-cı maddəsinin ikinci cümləsində (birinci halda) müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər;

4.16. həmin məcəllənin 106-cı maddəsinin ikinci cümləsində "müvafiq icra hakimiyyəti orqanlarının işçiləri" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyində işləyən dövlət qulluqçuları və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin işçiləri nəzərdə tutulur;

4.17. həmin məcəllənin 106-cı maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi (yalnız Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirirlər;

4.18. həmin məcəllənin 106-cı maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini vəsaitlərin orqanlar arasında bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitlərdən istifadə qaydası hissəsində Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyində işləyən dövlət qulluqçularına və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin işçilərinə münasibətdə) həyata keçirirlər;".

4. Müəyyən edilsin ki, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması, aparatının və regional bölmələrinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 446 nömrəli Fərmanının 4.2-ci bəndinə uyğun olaraq, müvafiq vəsaitdən istifadənin vahid qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilənədək Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 106-cı maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş vəsaitdən istifadə qaydasını, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla, müvafiq olaraq, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi müəyyən edir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2019-cu il*

# *Əli HƏSƏNOV:* "Nursultan Nazarbayevin qərarı qazax xalqının firavan gələcəyini təmin edəcək"

"Qazaxıstan və Azərbaycan ortaq tarixi, mədəniyyəti, ənənələri bölüşən qardaş ölkələrdir. Dövlət müstəqilliyi əldə edildikdən sonra bu ənənəvi münasibətlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və qazax xalqının lideri Nursultan Nazarbayevin səyləri nəticəsində qorunub saxlanılıb və daha da inkişaf etdirilib. Həm Heydər Əliyev, həm də Nursultan Nazarbayev müstəqil dövlət qurucuları kimi öz adlarını əbədi olaraq xalqlarının tarixinə qızıl hərflərlə yazıblar".




AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Kazinform agentliyinin xüsusi müxbirinə müsahibəsində söyləyib.

Əli Həsənov deyib: "Birmənalı şəkildə demək olar ki, Qazaxıstanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında son 30 il ərzində baş vermiş bütün müsbət dəyişikliklərdə həlledici rol məhz N.Nazarbayevə məxsusdur. Qazaxıstan onun müdrik siyasəti nəticəsində beynəlxalq siyasətin nüfuzlu aktoruna, sürətlə inkişaf etmiş və dünyanın aparıcı iqtisadiyyatları sırasına qoşulmağı hədəfləyən sənaye ölkəsinə çevrilib.

Nursultan Nazarbayevin bütün fəaliyyəti öz xalqının rifahına xidmətə həsr olunub. O, həmçinin sadəcə qazaxların deyil, türk-müsəlman dünyasının tanınmış siyasi xadimidir. Buna görə də əminik ki, N.Nazarbayevin qəbul etdiyi növbəti qərar da qazax xalqının taleyində müsbət addım olacaq".

Ə.Həsənov vurğulayıb: "Azərbaycan inanır ki, bu qərar qazax xalqının firavan gələcəyini təmin edəcək. Şübhəsiz ki, Azərbaycan dövləti Qazaxıstanla, onun formalaşmaqda olan yeni rəsmi strukturları ilə dostluq, tərəfdaşlıq kursunu bundan sonra da davam etdirəcək".

# *Hikmət HACIYEV:* "Azərbaycanın işğal edilmiş torpaqları azad olunmalı, qaçqın və məcburi köçkünlər öz torpaqlarına qayıtmalıdırlar"

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin Anadolu agentliyinə müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyətinə, problemin həlli yollarına, həmçinin Azərbaycan-Türkiyə münasibətlərinin inkişaf dinamikasına dair mühüm məsələlərdən bəhs olunub.

Azərbaycan tərəfinin Ermənistanın yeni rəhbərliyi ilə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqlara həmişə hazır olduğunu diqqətə çatdıran Hikmət Hacıyev vurğulayıb ki, 25 ildir problemin ədalətli həllini gözləyən Azərbaycanın bu məsələdə səbrinin həddi var. Təcavüzkar ölkə BMT Təhlükəsizlik Şurasının qərarlarına uyğun olaraq öz qüvvələrini Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarmalıdır. Əks halda, Azərbaycan BMT-nin Nizamnaməsindəki hüquqdan istifadə etməyə məcbur olacaq. Bildirilib ki, Ermənistan işğal edilmiş Azərbaycan ərazilərində təbii sərvətləri qanunsuz olaraq istismar etməkdədir. Bu yolverilməz halın qarşısı alınmalıdır.




Azərbaycan xalqının sülhə hazır olduğunu diqqətə çatdıran şöbə müdiri deyib ki, sülh üçün əvvəlcə ədaləti bərpa etmək lazımdır. Bunun üçün, ilk növbədə, işğal altındakı Azərbaycan torpaqları azad olunmalı, qaçqın və məcburi köçkünlər öz torpaqlarına qayıtmalıdırlar. Ermənistan tərəfi Azərbaycan və digər qonşu dövlətlərlə sülh şəraitində yaşamaqda maraqlı olmalıdır.

Müsahibədə, həmçinin Azərbaycan və Türkiyənin liderliyi ilə həyata keçirilən beynəlxalq əhəmiyyətli iqtisadi layihələrin əhəmiyyətindən də bəhs edilib.

# Naxçıvan Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyası yenidən qurulub

Martın 27-də Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyası yenidənqurmadan sonra istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.



Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin direktoru Behruz Əzimov çıxış edərək deyib ki, Maye-Qaz Anbarında və Qazdoldurma Stansiyasındakı binalar, çənlər, elektrik avadanlıqları, borular və digər avadanlıqlar 1961-ci ildə istismara verilmişdi. Bütün avadanlıqlar və tikililər istismara yararlılıq müddətini başa vurmuş, kompressor və nasoslar köhnəlmiş, istismara yararsız vəziyyətə düşmüşdü. Həmçinin alternativ enerji mənbəyi olmadığından enerji kəsilən zaman çətinliklər yaranırdı. Eyni zamanda, müəssisə yaşayış binalarının əhatəsində yerləşdiyindən təhlükə yaradırdı. Ali Məclis Sədrinin tapşırığından sonra müvafiq ərazi seçilərək müasir kompleks inşa olundu. Bu da imkan verəcəkdir ki, muxtar respublika əhalisinin, müəssisə və təşkilatlarının maye qaza olan tələbatı tam ödənilsin. Behruz Əzimov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: "Bu gün ölkəmizdə insan amilinə yüksək qiymət verilir. İnsanların təhlükəsiz və rahat yaşayışı diqqətdə saxlanılır. Muxtar respublikada da bu istiqamətdə tədbirlər görülür. Uzun illərdir fəaliyyət göstərən Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyası istismar müddətini başa vurmuşdu. Bu da həmin ərazidə yaşayanlar və işçilər üçün təhlükə yaradırdı. Ona görə də Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının yenidən qurulması üçün qərar qəbul edildi, ərazi seçildi, vəsait ayrıldı və bu işlər həyata keçirildi. Yaradılan şərait kollektivin iş şəraitinin yaxşılaşdırılmasına, eləcə də əvvəlki ərazidə yaşayan insanların təhlükəsizliyinin təmin olunmasına imkan verəcəkdir. Görülən işlər ölkəmizin inkişafının göstəricisi olmaqla yanaşı, həm də dövlətimizin insan amilinə verdiyi qiymətin daha bir ifadəsidir".

Ali Məclisin Sədri deyib: "Muxtar respublikada bütün yaşayış məntəqələri qazlaşdırılıb. Lakin qaz balonlarından istifadə edən təsərrüfat adamlarının, xüsusilə maye qazla işləyən avtomobillərin sayı artır. Tələbatın ödənilməsi üçün, ilk növbədə, müasir mərkəz qurulmalı idi. Bundan sonrakı mərhələdə isə rayon mərkəzlərində qazdoldurma stansiyaları qurulacaqdır. Həyata keçirilən bu tədbirlər nəticəsində yeni iş yerləri də açılacaqdır".

Ali Məclisin Sədri deyib: "Müasir Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının istifadəyə verilməsi muxtar respublikada fövqəladə halların qarşısının alınması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Çünki ötən il muxtar respublikada fövqəladə hallar zamanı müəssisə və təşkilatların işinin təşkilinə dair keçirilən müşavirədə qarşıya qoyulan əsas vəzifələrdən biri də Naxçıvan Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının yenidən qurulması idi. Müşavirədən ötən dövrdə müvafiq tədbirlər görülmüş, təhlükəli hallar müəyyənləşdirilərək aradan qaldırılmışdır. Hazırda muxtar respublikada bütün təşkilatlar və obyektlər fövqəladə hallara tam hazırdır".

Ali Məclisin Sədri Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasının qurulmasında əməyi olanlara təşəkkürünü bildirib, kollektivə fəaliyyətlərində uğurlar arzulayıb.

Məlumat verilib ki, yeni tikilmiş Maye-Qaz Anbarı və Qazdoldurma Stansiyasında ümumi tutumu 200 kubmetr olan 4 çən qurulub. Çənlərdə 95,2 ton maye qaz saxlamaq mümkündür. Yenidənqurma işləri zamanı təhlükəsizlik qaydalarına və standartların tələblərinə tam əməl olunub. Müəssisədə müasir soyutma, işıqlandırma və videonəzarət sistemləri, hava kompressoru, reduktor, rəqəmsal generator, 3 tərəzidən ibarət elektron dolma aparatı və təhlükəsizlik açarları quraşdırılıb, yanğınsöndürmə avadanlıqları qoyulub. Elektron dolma aparatı vasitəsilə 40 saniyədə istənilən ölçüdəki balonları doldurmaq mümkündür. Yeni nasoslar isə saatda 15 ton maye qaz boşaltmaq gücünə malikdir.

Müəssisədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən 24 saat təhlükəsizliyə nəzarət olunur. Hər hansı bir təhlükə yarandıqda həyəcan siqnalı işə düşür və sistem avtomatik olaraq bütün avadanlıqları bağlayır. Eyni zamanda, çənlərin üzərindəki qoruyucu açarlar da yüksək təzyiq olduğu zaman avtomatik olaraq açılır, təzyiq normala düşdükdə isə bağlanır. Bundan əlavə, müəssisədə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə tutumu 2,5 ton olan köpük çəni quraşdırılıb.

Ərazidə maye qazla işləyən avtomobillər üçün yanacaqdoldurma məntəqəsi də istifadəyə verilib.

Ali Məclisin Sədri təhlükəsizlik tədbirlərinə ciddi əməl olunması, ərazidə yaşıllıqların salınması və muxtar respublikanın rayonlarında da qazdoldurma məntəqələrinin qurulması barədə tapşırıqlar verib.

# Heydər Əliyev Mərkəzi dünyanın ən gözəl səkkiz konsert zalı arasında

Dünyada məşhur olan "Vogue" jurnalının Paris nəşrinin portalında dünyanın səkkiz ən gözəl konsert zalı haqqında məlumat dərc olunub.

AZƏRTAC xəbər verir ki, dünyanın memarlıq incilərindən olan Heydər Əliyev Mərkəzi də "Vogue"un siyahısında yer alıb. Mərkəzin məşhur memar Zaha Hadidin şah əsərlərindən biri olduğu diqqətə çatdırılıb.

Qeyd edilib ki, Heydər Əliyev Mərkəzi ölkəmiz üçün mədəniyyət və memarlığın yeni dövrünün rəmzidir. Memar bu əsəri vasitəsilə mədəniyyətimizin müxtəlif həssaslıqlarını və xalqın optimizmini əks etdirməyə çalışıb.



Dünyada böyük musiqiçilərin konsertləri keçirilmiş və ən gözəl hesab olunan bu konsert zallarının gizli sirlərlə dolu və bəzilərinin isə müasir memarlıq əsərlərinin şedevri olduğu vurğulanıb.

# Heydər Əliyev Fondu sosial xidmət müəssisəsində Novruz şənliyi təşkil edib

Martın 20-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində Novruz şənliyi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, bayram şənliyində müəssisə sakinləri üçün bayram süfrəsi açılıb.

Çıxış edənlər sosial cəhətdən həssas qrupların, tənha ahıl insanların Prezident İlham Əliyevin, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın daimi diqqət və qayğısı ilə əhatə olunduğunu söyləyib.

Müəssisənin sakinləri onlara göstərilən qayğıya görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və fondun vitse-prezidenti Leyla Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Tədbir bədii hissə ilə davam edib.

# İslahatlara alternativ yoxdur

## İlham Əliyev Azərbaycanın bundan sonra yalnız inkişaf yolu ilə gedəcəyini bəyan etdi

Azərbaycan xalqı Novruz bayramını əvvəllər olduğu kimi yüksək əhvali-ruhiyyə ilə keçirdi. Amma builki Novruza ayrıca xoş ovqat qatan başqa səbəblər də vardı. Belə ki, hələ fevral ayında Prezident İlham Əliyevin sosial məsələlərlə bağlı imzaladığı fərman və sərəncamlar, bunun nəticəsində minimum əməkhaqqının, əmək pensiyalarının minimum məbləğinin, sosial müavinətlərin, tələbə, magistr və doktorantlara verilən təqaüdlərin əhəmiyyətli dərəcədə artırılması bütün ictimaiyyət tərəfindən dərin rəğbət və razılıqla qarşılandı. Mart ayından isə əməkhaqqı, pensiya və sosial müavinətlər artımla verildi.

### 3 milyon vətəndaşı əhatə edən sosial paket

Təbii ki, sosial islahatlar paketi birdən-birə meydana çıxmadı. Hələ ötən ilin prezident seçkilərindən sonra Milli Məclisdə keçirilən andiçmə mərasimində İlham Əliyev bunun anonsunu vermişdi. Nitqində sosial siyasətin daim diqqət mərkəzində olduğunu deyən Prezident növbəti illərdə çox ciddi islahatların aparılacağını və bütün bunların vətəndaşlarımızın yaşayış səviyyəsini daha da yaxşılaşdıracağını bəyan etmişdi. Artıq keçən ilin ikinci yarısından başlayaraq islahatların dəqiqləşdirilməsi, müəyyən edilməsi və ardıcıllığı haqqında geniş işlər aparılmışdı. Bu ilin fevral ayında isə İlham Əliyev təxminən 3 milyon vətəndaşı əhatə edən bir sosial paketi elan etdi. Buna minimum əməkhaqqı, əmək pensiyalarının minimum məbləği, sosial müavinətlər, tələbə, magistr və doktorantlara verilən təqaüdlərlə yanaşı, buraya, həmçinin məcburi köçkünlərə verilən müavinətlərin artırılması, problemli kreditlərə son qoyulması, yeni inşa olunmuş binalardakı mənzillərin sənədləşdirilməsi kimi vətəndaş məmnunluğuna yol açan məsələlər daxildir.

Dövlət büdcəsindən əlavə on milyonlarla manatın ayrılmasına səbəb olun sosial islahatlar üçün ilk növbədə iqtisadi zəmin olmalıdır. Aydın məsələdir ki, dövlət büdcəsinin maliyyə imkanlarını artırmadan sosial sferada hansısa artımın tətbiqi perspektivdə ciddi böhran yarada bilər. Lakin Prezident İlham Əliyevin təşəbbüsləri ilə hələ 3 il əvvəldən başlanan yeni iqtisadi islahatlar Azərbaycan iqtisadiyyatının yeni mərhələdə inkişafına yol açdı. Bu mərhələdə xüsusən qeyri-neft sektorunun inkişafı təmin edildi. "Made in Azerbaijan" brendi altında məhsullarımızın istehsalı və ixracı dövlət tərəfindən stimullaşdırıldı. Artıq bunun uğurlu nəticələri göz önündədir. İqtisadiyyatın artım dinamikası, xüsusən qeyri-neft sektorunun və qeyri-neft sənayesinin inkişafı məhz iqtisadi islahatların bəhrəsidir. İqtisadi artım və maliyyə imkanlarının çoxalması isə ötən ay bütün istiqamətləri əhatə edən sosial qərarların qəbul edilməsinə imkan verdi. Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bu barədə deyilir: *"Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoyub. İslahatlar hərtərəflidir. İqtisadi islahatlar bizə imkan verir ki, əlavə gəlirlər əldə edilsin və büdcə gəlirlərimiz artıb. Bu ilin yanvar-fevral aylarında büdcə daxilolmaları 150 milyon manat səviyyəsində artıbdır. Bu, bizə imkan verir ki, həmin vəsaiti sosial layihələrə yönəldək. Qeyd etdiyim kimi, ciddi islahatlar üzərində işlər keçən il prezident seçkilərindən sonra başlamışdır. Bu gün isə çox ciddi sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan öz maddi vəziyyətini, maliyyə vəziyyətini yaxşılaşdırmış olur".*

### Azərbaycan yeni dövrə qədəm qoyub

Azərbaycanın iqtisadi imkanları çoxaldıqca vətəndaşların sosial rifahının daha da yüksəldilməsi ilə bağlı Prezident İlham Əliyevin yeni qərarlarının şahidi olacağıq. Çünki dövlət başçısının müəyyən etdiyi prioritetlərdən biri insanların yüksək sosial rifah içərisində, problemsiz, qayğısız yaşamasıdır. Respublikamızın inkişaf göstəriciləri və bütövlükdə hazırkı pozitiv iqtisadi proseslər isə gələcək yeni sosial qərarların müjdəçisidir. Məsələn, 2019-cu ilin yanvar-fevral aylarında ümumi daxili məhsul 3 faiz artıb. Bu isə, bir neçə il əvvəl özünü göstərmiş beynəlxalq maliyyə-iqtisadi böhrandan sonra qeydə alınan ən yüksək göstəricidir. Sənaye istehsalında ilin əvvəlində 4,6 faiz artım var. Qeyri-neft sektorunda isə 15,5 faizlik artım qeydə alınıb. Prezident təbrikində qeyd etdiyi kimi, bu, dünya rekordudur.

Bu da onu göstərir ki, iqtisadi islahatlar düzgün istiqamətdədir və Azərbaycan iqtisadiyyatı tezliklə dünya miqyasında yeni inkişaf nümunələri ortaya qoyacaq. Bir neçə il əvvəl inkişafın Azərbaycan modelini təqdim edən ölkəmiz iqtisadi uğurları ilə dünyanın öncülləri sırasında yer tutacaq. Dövlət başçısının dediyi kimi, bundan sonra Azərbaycan yalnız və yalnız inkişaf və tərəqqi yolu ilə gedəcək, vətəndaşların sosial vəziyyəti ildən-ilə yaxşılaşacaq.

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə təbrikində növbəti islahatların da anonsunu verdi. Görünən odur ki, islahatlar yalnız iqtisadi və sosial sfera ilə kifayətlənməyəcək. *"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir",* - deyə Prezident bildirib.

Azərbaycan hərtərəfli yenilənir, inkişaf edir. Prezident İlham Əliyevin təşəbbüsləri və siyasi iradəsi ilə aparılan islahatlar artıq həm iqtisadi, həm də sosial sahədə inqilabi dəyişikliklərə səbəb olub. Bütün bunlar göstərir ki, Prezidentin həyata keçirdiyi islahatlar məhz dövlətin və xalqın maraqlarına xidmət edir. Ən əsası dövlət hər addımda öz vətəndaşının yanındadır. Dövlət başçısının elan etdiyi yeni islahatların isə təhsil və səhiyyədə dəyişikliklərə yol açacağı şübhəsizdir. Bütün bunlar sözügedən sahələrdə inkişafa və vətəndaş məmnunluğuna yol açmaqla yanaşı, ölkəmizi dünyaya fərqli şəkildə təqdim etməyə imkan verəcək.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Şəhid sərhədçinin atasına "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı təqdim olunub



Novruz bayramı günlərində Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi hissələrində Vətənimizin təhlükəsizliyi və dövlət sərhədlərinin toxunulmazlığı uğrunda rəşadət göstərərək şəhid olmuş qəhrəman sərhədçilər anılıb.

Qəhrəman sərhədçilərdən biri - cari il martın 10-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Bala Bəhmənli kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədinin pozulması cəhdinin qarşısını alarkən şəhid olmuş kiçik çavuş Məmmədov Səxavət Füzuli oğlunun xatirəsinə həsr olunmuş tədbir keçirilib. Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin ideoloji mərkəzində keçirilən və DSX aparatının rəhbər vəzifəli şəxslərinin, Səfərbəlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələrinin iştirak etdikləri tədbirdə qəhrəman sərhədçinin şərəfli və ləyaqətli ömür yolu, Azərbaycan sərhədçisinin adına layiq xidməti haqqında geniş məlumat verilib.

Dövlət sərhədlərinin mühafizəsində qəhrəmancasına həlak olduğuna görə kiçik çavuş Məmmədov Səxavət Füzuli oğlunun Dövlət Sərhəd Xidməti rəisi, general-polkovnik Elçin Quliyev tərəfindən təltif olunduğu "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı tədbir zamanı şəhid sərhədçinin atasına təqdim edilib.

# DSX rəisi Ermənistan ilə dövlət sərhədindəki döyüş məntəqələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb

Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin Ermənistanla dövlət sərhədində yerləşən sərhəd döyüş məntəqələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlərin icra vəziyyəti, "Qazax" sərhəd dəstəsinin xidməti ərazisindəki əməliyyat şəraiti, ərazi müdafiəsinin və sərhəd mühafizəsinin gücləndirilməsi məqsədilə görülən işlər haqqında məruzələr dinlənilib.

Düşmənin mümkün təxribatlarının qarşısının alınması məqsədilə sərhəd döyüş səngərlərində müdafiə mövqelərinin möhkəmləndirilməsi, müqabil ərazidə aparılan işlərə adekvat olaraq ərazidə mühəndis-istehkam tədbirlərinin gücləndirilməsi üzrə tapşırıqlar verilib.

Qazax və Ağstafa rayonlarında ərazi müdafiəsinin təkmilləşdirilməsi, müasir sərhəd mühafizə infrastrukturunun yaradılması, sərhəd komendantlıqlarında və sərhəd döyüş məntəqələrində yeni xidməti binaların və əsgər kazarmalarının inşa edilməsi, sərhəd döyüş məntəqələrinə yeni yolların salınması, sənaye işığının və qaz xətlərinin çəkilməsi məqsədilə görülən işlərə baxış keçirilib, bu fəaliyyətin daha da genişləndirilməsi və intensivliyinin yüksəldilməsi üzrə göstərişlər verilib.

# Xanlıqlar dövrünün metafizikası: *Akademik Ramiz Mehdiyevin yeni kitabı haqqında ilk təəssüratlar*

Akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı işıq üzü gördüyü ilk andan etibarən elmi ictimaiyyətin böyük marağına səbəb olub. Çünki kitabda Azərbaycan tarixinin mühüm mərhələlərindən birini təşkil edən xanlıqlar dövrü ilk dəfədir siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni kontekstdə işıqlandırılır.

AZƏRTAC tarixçi alimlər üçün yol xəritəsi hesab olunan bu dəyərli tədqiqat işi haqqında görkəmli alim, Milli Məclisin deputatı, akademik Nizami Cəfərovun qeydlərini təqdim edir.

Hər bir xalqın tarixinin müxtəlif dövrlərində, mərhələlərində baş vermiş hadisələrin xronologiyasının bütün təfsilatı, təfərrüatı ilə (müxtəlif mənbələrin müqayisəsi əsasında) ortaya çıxarılıb tarix kitablarında maksimum dəqiqliyi ilə təsbit olunması həmin xalqın tərcümeyi-halının yeni nəslə çatdırılması baxımından nə qədər mühümdürsə, sözügedən hadisələrin (və xronologiyanın) metafizikasına və ya fəlsəfi mahiyyətinə varmaq, baş verənləri, ümumən, xalqın tarixi (və taleyi!) kontekstində təhlil edib dəyərləndirərək gələcəyin bu və ya digər dərəcədə əsaslı "yol xəritəsi"ni müəyyənləşdirmək ondan qat-qat böyük strateji əhəmiyyət kəsb edir. Lakin bunun üçün mənbəşünas-tarixçi səriştəsi ilə yanaşı, filosof və ideoloq təfəkkürü də tələb olunur ki, biz bunun təzahürünü akademik Ramiz Mehdiyevin müstəqillik illərində qələmə alınmış, demək olar, bütün əsərlərində görürük.

Bu günlərdə nəşr edilmiş "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı bu baxımdan istisna təşkil etməsə də, o mənada fərqlənir ki, burada yalnız "yol xəritəsi" müəyyənləşdirilmir, həm də Azərbaycan xalqının tarixinin bir dövrü - xanlıqlar dövrü əsasında tarixə münasibətin elmi metodu (metodologiyası) təqdim olunur. Bu da, əslində, nəzəri (fəlsəfi-ideoloji) miqyasına görə bütün dövrlərə münasibətdə keçərlidir.

Əlbəttə, hər hansı xalqın tarixi istər zəfərli, istərsə də məhrumiyyətli dövrləri ilə birgə bütövdür. Bununla bərabər, tarixdə elə məqamlar var ki, həmin məqamda buraxılmış səhvləri, yaxud məsuliyyətsizliyi tarix heç vaxt bağışlamır. Akademik Ramiz Mehdiyev Azərbaycan tarixinin təxminən yarım əsrlik bir zamanını əhatə edən xanlıqlar dövrünü məhz belə bir məqam hesab edərək göstərir ki, "Azərbaycanda mərkəzləşdirilmiş idarəçilik sisteminin əsaslarının məhv edilməsi, həmçinin milli mədəniyyətimizin, təsərrüfat həyatının tənəzzülünə səbəb olmuş feodal hərcmərcliyi və bitib-tükənməyən ara müharibələri ilə müşayiət edilən, ən nəhayət, tarixi torpaqlarımızın ikiyə bölünməsinə gətirib çıxaran bu keşməkeşli dövr tarixşünaslığımızda hələ də öz layiqli siyasi qiymətini almamışdır".

Doğrudan da, xalqın öz tarixinin bu və ya digər dövrü haqqında səhih məlumatı yoxdursa, bu, sadəcə, məlumatsızlıq və ya biliksizlik səviyyəsində qalmır, ciddi "sosial yaddaş problemi"nə çevrilməklə onun ümumən taleyini təhdid edir və son dərəcə ağır nəticələrə gətirib çıxarır.

Akademik Ramiz Mehdiyev yazır: "Bütövlükdə ictimaiyyətimiz, xüsusilə də alimlərimiz özləri üçün birdəfəlik yəqin etməlidirlər ki, milli şüurun təşəkkülü prosesi, milli məfkurənin, düşüncənin yaranması kortəbii şəkildə baş vermir. Milli şüurun təşəkkülü dövlət quruculuğu qədər mürəkkəb və çoxmərhələli bir prosesdir. Onun düzgün istiqamətdə inkişaf etməsi, dayanıqlı və praktik cəhətdən faydalı olması üçün dərindən düşünülmüş, bütün zəruri detalların nəzərə alındığı çevik, mütəhərrik strategiya işlənib hazırlanmalıdır".

"Tariximizin xanlıqlar dövrü"nün müəllifi tamamilə haqlı olaraq qeyd edir ki, bizim nəinki ictimai, hətta elmi tarixşünaslıq şüurumuzda da həmin dövr barəsindəki təsəvvür çox hallarda dumanlı və ya yanlışdır. Bir sıra elə stereotiplər formalaşıb ki, onların aradan qaldırılması üçün istər elmi-intellektual, istərsə də mənəvi-ideoloji cəbhələrdə hələ çox mübarizə aparmaq lazım gələcək.

Akademik Ramiz Mehdiyev bir neçə strateji məqam üzərində ayrıca dayanır. Birinci məqam ondan ibarətdir ki, "xanlıqlar dönəmində Azərbaycan dövlətçiliyi Səfəvilər dövründən etibarən yaradılan, Nadir şahın hakimiyyəti illərində isə bir qədər möhkəmləndirilən mərkəzləşmə prinsipindən məhrum olur. Vaxtilə Səfəvi şahlarının, xüsusən Şah İsmayıl Xətainin və Nadir şahın hərbi dühası və siyasi məharəti hesabına yaradılan, Azərbaycan türklərinin titul xalq statusunda idarə etdikləri böyük bir coğrafiyada irili-xırdalı onlarla feodal dövlətinin meydana gəlməsi siyasi böhranla yanaşı, böyük iqtisadi və mədəni tənəzzülə aparıb çıxarır". İkincisi, "xalqımızın məhz həmin siyasi dövrün səhvləri ucbatından ikiyə bölünməsi və bu günə qədər də parçalanmış vəziyyətdə yaşamağa davam etməsi ilə bağlıdır"... "Buraya tərəddüd etmədən türklərə qarşı tarixən bütün varlığı ilə kin bəsləyən və onu ilk fürsətdə ortaya qoyan erməni millətçiliyi amilini də əlavə etmək lazımdır".

Heç şübhəsiz, XVIII əsrin ortalarından XIX əsrin əvvəllərinə qədər istər Şimali, istərsə də Cənubi Azərbaycanda baş verən hadisələr Rusiya-Türkiyə-İran münasibətlərindəki hərbi-siyasi münaqişələr fonunda cərəyan edir. Lakin bu, "Azərbaycan xanlarının xalqın gələcək taleyinə etinasız münasibətinə, sərhəd tanımayan yersiz siyasi iddialarına, mənəm-mənəmliyinə bəraət qazandırmadığı kimi, onların üzərindəki tarixi məsuliyyəti də təmizləyə bilməz".

Kitabda göstərilir ki, Şimaldan gələn təhlükənin Azərbaycan xanlarını qəflətən yaxaladığı barədəki iddialar tamamilə yanlışdır. Hər şeydən əvvəl ona görə ki, "Azərbaycan xanları üçün I Pyotrun yürüşü zamanı baş verənlər o qədər də uzaq tarix deyildi və onlar cərəyan edən proseslərdən zəruri nəticələr çıxarmağa, sadəcə, borclu idilər. Siyasi lider, dövlət başçısı, ölkənin və xalqın taleyinə cavabdehlik məsuliyyətini öz çiyinlərinə götürən hər kəs baş verən prosesləri soyuqqanlı şəkildə təhlil edib, düzgün həll yolları tapmağa borcludur. Çünki o, yalnız özü üçün deyil, məsuliyyətini üzərinə götürdüyü xalqı, Vətəni üçün cavabdehlik daşıyır. Azərbaycan xanlarının heç birində belə bir müdrikliyə, təmkinə və ümumi mənafe naminə öz cılız iddialarını cilovlamaq böyüklüyünə rast gəlmək mümkün deyil.

Üstəlik, bir məqamı da nəzərdən qaçırmamalıyıq ki, Azərbaycanın birləşdirilməsi üçün edilən cəhdlərin boşa çıxmasında ardıcıllıq amilinin olmaması ilə yanaşı, ayrı-ayrı xanların güclü müqavimət cəhdləri də az rol oynamamışdır. Öz müstəqilliyini, hakimiyyətini qorumaq məsələsində güzəştsiz mövqe tutan Azərbaycan xanları birləşmə istiqamətində atılan istənilən addıma inadla qarşı çıxır, kiçik ittifaqlar yaradaraq vahid dövlətin təşkilinə yönəlmiş bütün təşəbbüslərə silahla cavab verirdilər".

Məsələ burasındadır ki, Azərbaycanın xanlıqlara parçalanması, dünyanın tarixi gedişinin əksinə olaraq, orta əsrlərdə deyil, mərkəzləşmə hərəkatı üçün səciyyəvi sayılan yeni dövrdə baş verirdi. Digər bir paradoks da o idi ki, akademik Ramiz Mehdiyevin dəfələrlə xatırlatdığı kimi, əvvəl Şah İsmayıl Xətainin, sonra isə Nadir şahın mövcud siyasi, iqtisadi, inzibati və mənəvi-ideoloji şərtlər zəminində qurmuş olduqları kifayət qədər zəngin mərkəzləşmiş dövlət təcrübəsindən məsuliyyətsizcəsinə imtina etməklə baş verir, hətta həmin təcrübəyə (və varisliyə) hər cəhətdən sədaqətlə yanaşan Qacarlar hakimiyyətinə belə, lazımi etimad göstərilmirdi.

"Tariximizin xanlıqlar dövrü" müəllifinin aşağıdakı qənaətləri sözügedən dövrə ona görə tarixçi-mütəfəkkir interpretasiyasının məhsulu hesab olunur ki, burada tarix öz içinə qapılaraq qalmır, əksinə, müdrik bir məntiqin təkidi ilə özü-özünü izah etməsinə məcbur edilir:

"Əfsus ki, Azərbaycan xanlarının məsuliyyətsiz davranışları səbəbindən həm dövlətçilik tariximizdə, həm də siyasi ənənəmizdə dərin kök salmış separatçılıq təmayüllərinin ömrü xanlıqlar dövrü ilə bitməyib. Sözügedən təmayül bir xoşagəlməz ənənə kimi özünü tariximizin növbəti mərhələlərində, o cümlədən XX əsrin sonlarında dövlət müstəqilliyimizi yenicə bərpa etdiyimiz illərdə də büruzə vermiş və bu meylin müxtəlif xarici və daxili qüvvələr tərəfindən körüklənməsi Azərbaycanın bütövlüyünü, suverenliyini ciddi şəkildə təhlükə altına salmışdı. Tam əminliklə bildirirəm ki, əgər o dövrdə tarix səhnəsində Azərbaycan xalqının ümummilli lideri, zəngin idarəçilik təcrübəsinə malik, böyük siyasi iradə və səriştə sahibi Heydər Əliyev olmasa idi, bəzən ayrı-ayrı şəxslərin hakimiyyət hərisliyi ucbatından, bəzən isə xarici qüvvələrin əmri ilə alovlanan separatçılıq atəşində gənc dövlətçiliyimiz yanıb külə dönəcəkdi". Görkəmli tarix filosofu tamamilə haqlıdır ki, "xanlıqlar dövrü ilə müstəqilliyimizin ilk illəri arasında mövcud olan kədərli oxşarlıqlardan daha biri isə torpaqlarımızın itirilməsi ilə bağlıdır. Əgər xanların özbaşınalığı və separatçı davranışları Şimali Azərbaycanın çarizm tərəfindən işğalı və 1828-ci il Türkmənçay sazişinin müddəalarına əsasən İran ermənilərinin Qarabağa, Naxçıvana və İrəvana köçürülməsi ilə yekunlaşmışdısa, ötən əsrin 90-cı illərinin əvvəlində üzləşdiyimiz vəziyyət Ermənistanın öz havadarlarının birbaşa dəstəyi sayəsində Dağlıq Qarabağı, həmçinin onun ətrafındakı 7 rayonu qəsb etməsi ilə nəticələndi".

Heç şübhəsiz, "tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur". Odur ki, millətin öz tarixi ilə fəxr etməsi milli özünüdərk baxımından nə qədər önəmlidir. Bir millət olaraq biz, əlbəttə, ilk növbədə, Şah İsmayıl Xətainin, Nadir şahın övladlarıyıq, ancaq heç vaxt istisna edilə bilməz ki, milli ictimai şüurumuzun hansısa küncündə xanlıqlar dövrü "dərəbəyləri"nin mənəm-mənəmlik iddiaları mürgüləmir.

Akademik Ramiz Mehdiyev yazır: "Dövlət idarəçiliyində, iqtidar arasında kiçik bir çatın, ziddiyyətin yaranması




kifayətdir ki, sadalanan dağıdıcı təmayüllər Azərbaycanın müstəqilliyini, dövlətçiliyini təhdid edəcək qədər böyük miqyas alsın. Məhz buna görədir ki, sözügedən amil, yəni, etnopsixologiyamızda mövcud olan və xalqımızın gələcək inkişafına mənfi təsir göstərə biləcək qüsurların islahı, yüksək siyasi mədəniyyətə və mütərəqqi təfəkkürə malik, öz Vətəninin həyati mənfəətlərinə sadiq olan cəmiyyətin təşkili azərbaycançılıq məfkurəsinin mühüm elementləri sırasına daxildir.

Həm Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, həm də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdikləri dövlət quruculuğu siyasətinin, yürütdükləri ictimai inkişaf xəttinin hədəfi yalnız dayanıqlı, müasir və güclü dövlətçiliyin yaradılması deyil, eyni zamanda, müasir baxışlara malik, tarixi-mənəvi köklərinə bağlı, sağlam düşüncəli vətəndaşların formalaşdırılmasıdır. Dövlət başçısı tərəfindən daim vurğulanan "insan kapitalı" anlayışı bütün digər mənaları ilə yanaşı, eyni dərəcədə haqqında danışdığımız ali məqsədi də ehtiva edir".

Əminliklə demək olar ki, müstəqillik illərində Azərbaycanda milli ictimai şüurun inkişafı üçün çox böyük işlər görülüb, xüsusilə Azərbaycan insanının təbiətində yüzillər boyu kök salmış ikinci, yaxud üçüncü dərəcəli olmaq kompleksi xeyli dərəcədə aradan qaldırılıb. Öz tarixinin üçüncü onilliyini başa vurmağa hazırlaşan müstəqil Azərbaycan dövləti təkcə Azərbaycan Respublikası vətəndaşlarının həmrəyliyinin, mənəvi-siyasi mütəşəkkilliyinin, xalq- iqtidar birliyinin nümunəsi olaraq qalmayıb, eyni zamanda, dünya azərbaycanlılarının etimadını qazanıb... Lakin unutmaq olmaz ki, dünyanın gərdişi kimi insanların xarakteri də mürəkkəb olaraq qalır və tarix həm müsbət, həm də mənfi mənada bizə yoldaşlıq etməkdədir.

Kitabda Şah İsmayıl Xətaidən başlayan mərkəzi hakimiyyət (və dövlət bütövlüyü) uğrunda mübarizənin XVIII əsrin sonlarına doğru Ağa Məhəmməd şahın timsalında Qacarlar tərəfindən davam etdirilməsinə, ümumiyyətlə, Qacarlar xanədanının tarixinə geniş yer ayrılıb ki, bu da səbəbsiz deyil. İstər Azərbaycan tarixşünaslığında, istərsə də ictimai-mədəni fikrində həmin dövrün müxtəlif mərhələləri, yetirdiyi görkəmli şəxsiyyətlər haqqında fərqli, çox hallarda isə həqiqətə uyğun olmayan mülahizələr, hətta haqq-ədalət naminə belə aradan qaldırılması çətin olan "qələti-məşhur"lar mövcuddur. Böyük şair Səməd Vurğunun "Vaqif" dramındakı Şah Qacar obrazı on illərlə Azərbaycan tarixinin görkəmli şəxsiyyəti barədə cəmiyyətdə elə bir neqativ təsəvvür yaradır ki, həmin təsəvvürün təkzibi üçün hələ çox illər lazım gələcək. Ancaq söhbət ondan getmir ki, "Vaqif" dramının müəllifinin, yaxud Şah Qacar rolunun ifaçısı Sidqi Ruhullanın qeyri-adi istedadı inkar olunmalı, yaxud onların tarixi şöhrətinə hər hansı şəkildə kölgə salınmalıdır. Məsələnin mahiyyəti ondadır ki, Qacarlar xanədanının əsasını qoymuş Ağa Məhəmməd şah Qacarın da halal tarixi şöhrətinin özünə qaytarılmasına ehtiyac var. Tariximizin xanlıqlar dövrünü araşdıran müəllif, haqlı olaraq qeyd edir ki, "addım-addım tarixi həqiqətlərə yaxınlaşmaq, keçmişin qaranlıq səhifələrinə işıq salmaq, təhrifləri aradan qaldırmaq naminə var gücümüzlə çalışmalıyıq. Başqa bir yol axtarmaq da mənasızdır, ən əsası ona görə ki, bunu, bizdən başqa etmək istəyində olan kimsə yoxdur!"

Akademik Ramiz Mehdiyevin Qacarlar xanədanının həm etnik, həm də siyasi genotipi barədəki mötəbər mənbələrə, konkret faktlara əsaslanan qənaətləri, heç şübhəsiz, metodoloji mahiyyəti, zəngin məzmun-mündərəcəsi etibarilə olduqca mükəmməl milli tarixşünaslıq dərsləridir ki, həmin dərsləri bu səviyyədə demək üçün tarixi bilmək azdır, hər cəhətdən geniş dünyagörüşünə, fəlsəfi təfəkkürə əsaslanan səmimi milli dövlətçilik təəssübkeşliyi də tələb olunur: "Qacarların Azərbaycan tarixinə və dövlətçilik ənənələrinə aid olmadığına özlərini inandıranlar bir faktı da heç zaman unutmasınlar ki, Pəhləvilər İran dövlətçiliyinin yaranma tarixi, təməli qismində nə Səfəviləri, nə də Nadir şahı əsas götürmürdülər. Onlar İran dövlətçiliyinin yaradılması, atası və ideoloqu qismində Əhəmənilər imperiyasının qurucusu, etnik cəhətdən fars olan II Kiri (e.ə. 559-530-cu illər) ucaldır, ona istinad edirdilər. Həmin dövrdə İranın dövlətçilik tarixi üçün əhəmiyyət daşıyan bütün əlamətdar mərasimlərin məhz Kirin Şirazdakı məqbərəsi önündə təşkil edildiyi hər kəsə məlum olan faktdır. Zənnimcə, Pəhləvilərin bu davranışları fonunda Qacarların öz siyasi varisliklərinin və mənəvi-tarixi mənsubiyyətlərinin istinadgahı qismində Azərbaycanı və türk mənşəli Səfəviləri və Nadir şahı seçməsi faktları onların hansı təfəkkürün daşıyıcıları olduqlarını aydın şəkildə nümayiş etdirir".

Qacarlar sülaləsinin banisinin "vəliəhdin, sadəcə, atası deyil, anası da Qacarlar soyundan olmalıdır" göstərişini təhlil edən akademik Ramiz Mehdiyev göstərir ki, "məsələyə müasir demokratik anlayışlar prizmasından yanaşdıqda Ağa Məhəmməd şahın belə bir qaydanı qanun şəklinə salması tayfabazlığın və klançılığın, feodal təfəkkürünün təzahürü kimi görünə bilər. Ancaq bu məsələdən danışarkən iki məqamı da unutmaq olmaz. Birincisi, Ağa Məhəmməd şahın hakimiyyətə gəldiyi dövrdə bütün Yaxın Şərqdə olduğu kimi, Azərbaycanda və İranda da feodalizm dövrü hökm sürür, bütün münasibətlər sistemi orta əsr normaları ilə tənzimlənirdi. İkincisi isə, barəsində danışdığımız qanun Qacarların simasında hakimiyyətin Azərbaycan türklərindən başqa hər hansı digər etnik qrupun, o cümlədən farsları təmsil edən siyasi qüvvənin ixtiyarına keçməsinin qarşısına sədd çəkmiş olurdu".

Kitabda Qacarların XIX əsrin sonu, XX əsrin əvvəllərində maarifçiliyə, milli oyanışa, demokratik hərəkatlara münasibətinə dair də maraqlı mülahizələr irəli sürülməklə, bir sıra polemik məsələlərə aydınlıq gətirilir ki, onlardan biri də ana dilində təhsilin vəziyyətidir: "Azərbaycan dilində tədrisə marağın olmaması Qacarlardan deyil, ümumən İranda əsrlərdən bəri hökm sürən məlum ənənə və dəbdən qaynaqlanmaqda idi. Lakin Qacarlar heç zaman azərbaycanlı maarifçilərin ana dilində məktəb açmaq təşəbbüslərinə mane olmamış, bu ideya uğrunda mübarizə aparanlara qarşı heç vaxt dövlət səviyyəsində hər hansı bir təqib həyata keçirməmişlər. Faktlar göstərir ki, ana dilində müasir, dünyəvi təhsil ideyasını həyata keçirmək istəyənlər daha çox yeniliklərə, tərəqqiyə, müasirliyə qənim kəsilən mühafizəkar, xurafatçı ruhanilərin müqaviməti ilə qarşılaşmış, onlar tərəfindən təzyiqlərə məruz qalmışlar. Bu cür hallar o dövrdə təkcə Qacarlar dövləti üçün deyil, bütün İslam dünyası, o cümlədən Qafqaz Azərbaycanı üçün də xarakterik idi".

Bununla belə, kitabda hakimiyyət tərəfindən həm mənəvi, həm də maddi dəstək alaraq anadilli məktəblər açan Mirzə Həsən Rüşdiyyənin maarifçilik fəaliyyətinin geniş işıqlandırılması bir daha sübut edir ki, Qacarlar türk-Azərbaycan dilinin ölkədə (və onun hüdudlarından kənarda) yayılmasında hər halda maraqlı olduqlarını gizlətməmişlər.

XX əsrin əvvəllərində İran azərbaycanlılarının ictimai-siyasi fəallığı da təsadüfi deyil. Tamamilə doğrudur ki, "1905-1911-ci illərdə İranda demokratik təsisatların qurulması uğrunda aparılan və Səttarxan kimi görkəmli şəxsiyyəti tarix səhnəsinə çıxaran inqilabi hərəkat məhz Təbrizdən başlamış, onun başlıca hərbi və siyasi qüvvəsini sona qədər əsasən Azərbaycan türkləri təşkil etmişlər. İran öz tarixində parlamentarizm ənənələrinin yaranmasına və ilk konstitusiyanın qəbuluna görə məhz sözügedən hərəkata, yəni Azərbaycan xalqının mübarizliyinə, mütərəqqi siyasi təfəkkürünə borcludur. Səttarxanın qiyamı yatırılsa da, onun işini bir neçə il sonra Azərbaycan xalqının digər görkəmli oğlu Xiyabani davam etdirmişdir". Bu isə o deməkdir ki, hakimiyyət mənsub olduğu etnosun yaradıcılıq istedadını, mənəvi iradəsini, ictimai-siyasi fəallığını nəinki məhdudlaşdırırdı, əksinə, onun qarşısında, təbii ki, mövcud şərait hüdudunda hər cür imkanlar açırdı.

Akademik Ramiz Mehdiyev yazır: "Qacarların hakimiyyətinin son dövrünə nəzər saldıqda biz açıq-aşkar mərkəzi hökumətin zəiflədiyi, feodal hakimlərin, nüfuzlu ordu komandanlarının mərkəzlə hesablaşmayacaq qədər gücləndiyinin şahidi oluruq. Yaranmış vəziyyət siyasi hakimiyyətdə fars əsilli məmurların, xüsusilə də ingilislərin dəstəyi ilə çoxalmasına, onların həlledici vəzifələrə irəli çəkilməsinə münbit zəmin hazırlamışdır. İllər sonra həmin məmurlardan biri, Qacar ordusunun polkovniki, qatı fars millətçisi Rza şah Pəhləvi (1878-1944) ingilislərin bilavasitə hərbi və maddi dəstəyi ilə 1925-ci ildə hakimiyyəti ələ keçirir".

Göründüyü kimi, kitabda Qacarların siyasi aqibəti mərkəzləşmiş dövlət qurmaq (və onu idarə etmək) üçün tələb olunan təxirəsalınmaz tədbirlər görmək barədəki tarixi təcrübəyə əsaslanan ideya-anlayışlarla çox aydın bir şəkildə izah olunur.

Müəllif yenidən xanlıqlar dövrünə qayıdaraq təkzibolunmaz bir qanunauyğunluq təqdim edir: "Toxunduğumuz faktları ümumiləşdirib təhlil etdikdə maraqlı bir qanunauyğunluqla rastlaşmağımız göz önündədir. Həmin qanunauyğunluq isə öz hakimiyyəti, taxttacı naminə çarizmlə müttəfiqlik münasibətlərinə gedən Azərbaycan xanlarının hamısının faciəli sonluğundan ibarətdir. İbrahim xanın və ailəsinin qətli, Səlim xanın və Mustafa xanın Azərbaycandan didərgin salınması bunun ən bariz nümunələrini təşkil etməkdədir. Həqiqətən də bütün bunlar ətrafında çox ciddi düşünüləsi faktlardır!"

Xanlıqlar dövründə erməni məsələsi kitabda bilavasitə mənbələrə dayanılaraq bütün təfsilatı (və metafizikası) ilə təhlil edilib ümumiləşdirilir. Həmin mənbələrdən biri 1805-ci il mayın 14-də Qarabağ xanlığı ilə Rusiya imperiyası arasında imzalanmış Kürəkçay müqaviləsidir. Kitabda göstərilir ki, "müqavilənin mətnində Qarabağdakı erməni məlikləri, onların hüquqları, yaxud siyasi vəziyyəti haqqında bir müddəa belə mövcud deyil. Şübhəsiz ki, əgər həmin dövrdə ermənilər Qarabağ xanlığının ictimai-siyasi həyatında ciddi nüfuz və təsir sahibi olsaydılar, Rusiya onlardan təzyiq aləti qismində istifadə etmək imkanından mütləq şəkildə bəhrələnərdi. Onlar üçün müəyyən imtiyazlar və xüsusi status tələb edilərdi".

Başqa bir mühüm mənbə Fətəli şah Qacarın 1800-cü ilin oktyabrına aid fərmanıdır. Həmin fərman tam aydınlığı ilə nümayiş etdirir ki, erməni katolikoslarını tutduqları vəzifəyə məhz şah təsdiq etməli idi... "Sual olunur ki, əgər ermənilərin İrəvan ərazisində müstəqil dövləti var idisə, onların katolikosunu niyə erməni hökmdarları yox, Səfəvi, Əfşar, yaxud Qacar şahları vəzifəyə təsdiqləməli idi? Yaxud da hansı səbəbdən erməni kilsəsinə tətbiq edilən vergi güzəştlərinə dair fərmanları erməni hökmdarları yox, məhz türk şahları verirdilər? Qoyulan suallar ətrafında ermənilərdən daha çox onların yalançı təbliğatına alət olan bəzi əcnəbilər bir qədər dərindən düşünə bilsəydilər, çox yaxşı olardı".

Xanlıqlar dövrünün metafizikası bizim tarixi şüurumuzda, əlbəttə, yalnız bədbinlik doğurmamalıdır... "Azərbaycan ərazilərinin ayrı-ayrı xanlıqlara parçalanması, vahid mərkəzləşdirilmiş dövlətçiliyin itirilməsi və bəzi xanlıqların acınacaqlı aqibəti istər-istəməz ölkədə yenidən birləşmək və bütöv, müstəqil dövlət yaratmaq zərurətini meydana qoymuşdur. İkincisi isə, Azərbaycan xanlıqlarından hər biri o qədər də böyük əraziləri əhatə etmədiyindən, bəlli bir coğrafiyada fəaliyyət göstərdiyi üçün xalqa yaxın olmuşdur".

"Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı, sözügedən dövrün mədəniyyətindən qısaca da olsa (çünki həmin mövzu kitabın predmetinə bilavasitə daxil deyil), söhbət açır: "Hakimiyyətlə xalqın yaxınlaşması şifahi xalq yaradıcılığının, xalq sənətinin, aşıq ədəbiyyatının inkişafında və nəhayət, yazılı ədəbiyyatda folklor ənənələrinin qüvvətlənməsində mühüm rol oynamışdır. XVIII əsrdə Molla Pənah Vaqifin şeirlərində xalq həyatı və sadə insanlar, ölkə təbiətinin real mənzərələri tərənnüm olunmuşdur".

Yeri gəlmişkən, mən hələ 1991-ci ildə "XVIII əsr Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişəm. Odur ki, əminliklə deyə bilərəm: Azərbaycan Səfəvilərinin milli (və siyasi) mərkəzləşdirmə təcrübə-ənənələri həmin dövrə qədər davam etsəydi, həm ədəbi dilimizin, həm də ədəbiyyatımızın mövcud intibah imkanları elə bir miqyas alardı ki, sonrakı mərhələlərdə hər hansı təcavüz onu öz mehvərindən çıxara bilməzdi.

Kitaba Azərbaycan dilinə tərcüməsi ilə birlikdə son dərəcə qiymətli mənbələrin, onların izahının, eləcə də xanlıqlar dövrü tarixi şəxsiyyətləri, hadisələri barədə dəqiq məlumatların əlavə edilməsi böyük məmnunluq doğurur.

Kitabda dərin analitik təhlil, mükəmməl məntiqi-fəlsəfi ümumiləşdirmə ilə yanaşı, hər cəhətdən canlı bir epos təhkiyəsi də var ki, oxucunu sona qədər öz təsiri altında saxlamaqla ona həm məlum mənbələrə yeni gözlə baxmağı öyrədir, həm də üzə çıxarılmış yeni mənbələrdəki məlumatların həyəcanını yaşamağı aşılayır. Eyni zamanda, tarixlə bu günün arasında elə bir körpü salır ki, tarixdə bu gün, bu gündə isə tarix bütün əzaları ilə görünür.

Heç şübhəsiz, bu fundamental tədqiqatın dəyərini bir məqalə ilə müəyyənləşdirmək mümkün deyil. Mən yalnız ilk təəssüratlarımı bildirdim. Əsərdə irəli sürülmüş hər bir müddəa, mülahizə isə geniş müzakirələrin predmeti olmağa layiqdir.

Akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı tarixlə ciddi maraqlanan hər kəsin, xüsusilə tarixşünasların stolüstü kitabı olmalıdır. Yalnız tarixi öyrənmək üçün deyil, həm də onu sözün əsl mənasında mənimsəmək, dərk etmək, milli şüur faktına çevirmək üçün...

# Əli Həsənovun əsərləri Buxarestdə rumın dilində nəşr edilib




Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun "Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri" və "Xocalı soyqırımı: səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması" adlı əsərləri Buxarestdə rumın dilində çap olunub.

AZƏRTAC xəbər verir ki, artıq on üçüncü dildə nəşr edilmiş əsərdə son iki əsrdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti təhlil olunur. Kitabın rumın dilinə tərcüməsinə məsul Vaqif Həsənovdur.

Mənbələrə əsasən kitabda təsdiq edilir ki, təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən soyqırımı və etnik təmizləmələrə məruz qalıb. Kitabda göstərilir ki, XIX əsrin sonunda - 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hnçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratdıqdan sonra, erməni millətçilərinin "böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoyub və öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda türk-müsəlman əhalisinə qarşı dəhşətli terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparıblar.

Ümumiyyətlə, Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkar siyasətinə məruz qalaraq öz tarixi torpaqlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. Monoqrafiyada 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş soyqırımlarının Bakı, Quba, Şamaxı ilə yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə davam etdirilməsi nəticəsində on minlərlə azərbaycanlının qətlə yetirilməsi elmi mənbələrə əsasən tədqiq edilir.

Kitabda xarici dillərdə Azərbaycan tarixinin ayrı-ayrı dövrlərinə dair sənədlər və xəritələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş əraziləri haqqında məlumatlar və fotolar da yer alıb.

Bununla yanaşı, əsərdə XX əsrin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlığı, o cümlədən 1988-1993-cü illərdə azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti elmi mənbələr əsasında araşdırılır. Müəllif göstərir ki, bütün dövrlərdə olduğu kimi, ermənilərin həyata keçirdiyi bu işğalçılıq siyasəti də kütləvi qırğınlarla müşayiət olunub. Belə ki, bu illərdə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirib, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq daha 7 rayonu (Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan) işğal edib. Ermənistanın hərbi təcavüzü nəticəsində 20 min nəfərdən çox azərbaycanlı öldürülüb, 50 min nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olub, torpaqlarımızın 20 faizi işğala məruz qalıb, bir milyona yaxın azərbaycanlı öz doğma yurdlarından didərgin salınaraq qaçqın və məcburi köçkünə çevrilib.

Xüsusilə əsərdə XX əsrin sonlarında ermənilərin Xocalıda törətdikləri soyqırımı aktı bütün insanlığa və bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biri kimi səciyyələndirilir. Əsərdə 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərinin işğalı zamanı dinc azərbaycanlı əhaliyə qarşı törədilən vəhşiliklər xarici mənbələrə əsasən geniş təhlil edilir. Həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bu strateji əhəmiyyətli ərazinin tarixinə nəzər salınır, Xocalı şəhərinin əhəmiyyətini artıran səbəblər göstərilir.

Xocalı soyqırımı ermənilərin azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirdikləri ən ağır cinayət kimi araşdırılan kitabda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, Xocalı soyqırımına siyasi-hüquqi qiymətin verilməsi istiqamətində görülən işlər, xüsusilə, Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı aktı kimi tanınması məsələləri geniş tədqiq olunur. Həmçinin kitabda Xocalı soyqırımının tanınması ilə bağlı indiyə kimi qəbul edilən sənədlər də öz əksini tapmışdır.

Əsərdə müəllif diqqətə çatdırır ki, Xocalı soyqırımı dünya tarixində heç vaxt unudulmayan Xatın, Xirosima, Naqasaki, Sonqmi, Ruanda, Srebrenitsa və Holokost kimi dəhşətli soyqırımlardan heç də geri qalmır və adıçəkilən hadisələr dinc əhalinin soyqırımı olaraq bütün dünyada geniş əks-səda doğurub.

Kitab Ermənistanın etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasətinin dünya ictimaiyyətinə daha geniş miqyasda çatdırılması və ifşa olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

# “Vətənin müdafiəsinə hazıram!”

## Şəkidə təşkil olunan kütləvi tədbir bu deviz altında keçirilib

Martın 27-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Azərbaycan Gənclər Fondu və Şəki Şəhər İcra Hakimiyyəti ilə birlikdə Heydər Əliyev Mərkəzində “Vətənin müdafiəsinə hazıram!” devizi altında 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş kütləvi tədbir keçirib.







Tədbirdən öncə xidmət rəisinin müavini, general-mayor Yusif Mirzəyev, şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov və qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Dövlət himni ilə başlayan tədbirdə orta məktəblərin yuxarı sinif şagirdləri, gənclər, ictimaiyyət nümayəndələri, şəhid ailələri, veteranlar, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri mart soyqırımının qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkil etdiyi tədbirin əhəmiyyətini xüsusi vurğulayıb, xidmət tərəfindən Şəki məktəbliləri arasında vətənpərvərlik mövzusunda müsabiqənin keçirilməsinin gənc nəslin vətənə bağlılıq ruhunda yetişməsinə təsirini diqqətə çatdırıb. O, 1918-ci ilin martından başlayaraq daşnaklar tərəfindən Bakının və ümumilikdə Qafqazın azərbaycanlılardan təmizlənməsi məqsədilə hiyləgər və amansız planın icrasına başlanıldığını bildirib. Qeyd edib ki, bu zaman Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və digər bölgələrdə ermənilər xüsusi amansızlıqla dinc azərbaycanlılara qarşı soyqırımı törədib, kişiləri, minlərlə qadın və uşağı məhz azərbaycanlı olduqları üçün dəhşətli üsullarla qətlə yetiriblər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, general-mayor Yusif Mirzəyev xidmət tərəfindən gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində görülən işlərdən ətraflı söhbət açıb. Vətənpərvərlik tərbiyəsində Azərbaycan tarixinin hərtərəfli öyrənilməsinin vacibliyini vurğulayıb. Ermənilər tərəfindən azərbaycanlılara qarşı zaman-zaman soyqırımının törədildiyini, bu gün respublikamızın 20 faiz torpaqlarının işğal altında saxlanıldığını qeyd edib. Bildirib ki, vətəni, torpağı, daimi yaşayış yeri olmayan, yerli şəraitə “uyğunlaşmağı”, güclülərə “xidmət göstərməyi” yaxşı bacaran ermənilər daim xəyanətkarlıq, satqınlıq “nümunəsi” ortaya qoyublar. Bunlardan biri 1918-ci ilin martında azərbaycanlılara qarşı törədilmiş soyqırımıdır. Həmin il martın 30-da erməni-bolşevik birləşmələri Bakı şəhərini gəmilərdən yaylım atəşinə tutub, ardınca isə silahlı daşnaklar azərbaycanlıların evlərinə hücum edərək amansız qətllər törədiblər. Kütləvi xarakter almış qırğınlar zamanı təkcə Bakıda 12 min, bəzi mənbələrə görə isə 20-25 min dinc azərbaycanlı qətlə yetirilib.

Yusif Mirzəyev qeyd edib ki, uzun müddət bu faktlar gizlədilsə də 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” fərmanda həmin dəhşətli hadisələrə siyasi qiymət verilib və 31 mart “Azərbaycanlıların Soyqırımı Günü” elan edilib.

Gənclər Fondunun şöbə müdiri Orxan Ərəbov tədbirdə söz alaraq ölkəmizdə həyata keçirilən gənclər siyasətindən danışıb.

Tədbirdə çıxış edənlər 1918-ci ildə daşnak-bolşevik birləşmələrinin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri kütləvi qırğınların insanlığa və bəşəri dəyərlərə sığmayan cinayət olduğunu vurğulayıblar. Onlar ermənilərin xalqımıza qarşı həyata keçirdikləri qanlı soyqırımı aktlarının gənclərə çatdırılmasının vacibliyini, bu məqsədlə keçirilən anım tədbirlərinin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində mühüm rolu olduğunu bildiriblər.

Tədbirdə Şəki şəhər orta məktəb şagirdləri arasında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü mövzusunda keçirilmiş yazı müsabiqəsinin qalibləri də mükafatlandırılıb. Münsiflər heyətinin qərarına əsasən 1-ci yerə Şəki şəhər 10 nömrəli tam orta məktəbin şagirdi Nərgiz Abbaszadə, 2-ci yerə Bideyiz kənd tam orta məktəbin şagirdi Nuray Lətifli, 3-cü yerə Şəki şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Fəridə Mustafayeva layiq görülüblər. Qaliblərə müvafiq diplom və mükafatlar təqdim edilibdir.

Sonda Şəki rayon özfəaliyyət dərnəyi və məktəblilərin vətənpərvərlik ruhunda hazırladıqları dolğun ədəbi-bədii proqram təqdim olunub.

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***

# Ermənistan ordusunda növbəti xaos:
# hərbçilər qiyama qalxdılar

*İşğalçı ölkənin silahlı qüvvələrində özbaşınalıq baş alıb gedir*

Ermənistanda getdikcə daha da ağırlaşan sosial-iqtisadi durum ölkənin silahlı qüvvələrinə daha çox sirayət etməkdədir. İşğalçı ölkənin hərbisində baş verən son olaylar bunu təsdiq edir və bir daha göstərir ki, burada əsl xaos hökm sürür.

Proseslər aydın şəkildə göstərir ki, Ermənistan silahlı qüvvələrində özbaşınalıq baş alıb gedir, bu fonda əsgər və zabitlər arasında çox böyük uçurum yaranıb. Ermənistan ordusunun Mehridə yerləşən polkunda əsgərlərin qiyam qaldırması da qeyd edilənlərin təsdiqidir.

### Hərbi qiyamın yaranma səbəbləri

Hadisənin səbəbləri barədə müxtəlif məlumatlar səslənir. Məsələn, qeyd olunur ki, bunun səbəbi hərbi hissənin Qasparyan familiyalı zabitinin əsgərlərdən birini təhqir etməsi olub. Yüzlərlə çağırışçı əsgər onun müdafiəsinə qalxıb və hərbi hissəni özbaşına tərk ediblər. Yolda onları polk komandiri qarşılayıb və dilə tutaraq geri qaytara bilib. Lakin daha sonra bunt qaldıran əsgərləri sıraya düzərək onların arasından 20 nəfərini seçiblər. Hərbi formalarını cırıblar və avtobusa dolduraraq Qarabağa, təmas xəttinə göndəriblər.

Yayılan digər məlumatlara əsasən, qiyama başqa bir səbəb imtiyazlı şəraitdə xidmət edən Karo adlı hərbi qulluqçunun digər hərbi hissəyə köçürülməsi ilə bağlı olub. Karo əsgər yoldaşları ilə birgə hərbi qulluqçuların hərbi hissənin ərazisini tərk etməsini təşkil edib. Hadisə şahidləri bildiriblər ki, şəhərə çıxan hərbi qulluqçular “Oğrulara həyat, polislərə ölüm” şüarını səsləndirərək hərəkət ediblər. Bunun baş aparıcısı olan Karo Musaelyan isə “Uşaqlar ruh yüksəkliyi ilə, mən oturub çıxmış oğlanam, harada otursam da hamınıza sahib çıxacam” deyə uca səslə bağırıb.

Hadisə şahidlərindən biri kimliyinin gizli qalması şərtilə detalları açıqlamağa razı olub. Fərari əsgərlərlə danışıqlar apardıqdan sonra komandanlıq onların “kral qardaşını” digər hərbi hissəyə köçürməyəcəkləri şərtilə əsgərləri alaya qaytarmağa nail olub. Komandanlıq heyəti də öz şərtini irəli sürməklə, intizamsızlıq edən hərbi qulluqçunun yerini dəyişməyəcəyini, lakin günahkarların qanun çərçivəsində cəzalandırılacaqlarını bildirib.

Məlumat verən gizli mənbə bildirib ki, Karo Musaelyan hərbi hissədə ayrıca otağı olmaqla imtiyazlı həyat yaşayır, xüsusi şəraitdə xidmət edir.

Adının gizli qalmasını istəyən digər hal şahidlərindən biri isə bu qədər hərbi qulluqçunun hərbi hissədən çıxmasından əhalinin təşvişə düşdüyünü diqqətə çatdırıb: “Mən dedim, bu saat geri qayıdacaqlar. Əsgərin hərbi hissəni tərk etməyə ixtiyarı yoxdur. Geri çəkilməyə bərabər bir hərəkətdir. Hərbi hissə daxilində mübarizə apar, polkovnikin ağzından yapış, boğ, ancaq hərbi hissəni tərk etmək olmaz”.

“Joğovurd” nəşrinin məlumatına görə isə, buradakı müddətli xidmət hərbi qulluqçuları hərbi hissəni özbaşına tərk etdikdən sonra oğru aləminə öz sadiqliklərini nümayiş etdirərək şəhərdə yürüş ediblər. Nəşr aparılan istintaq araşdırmaları barədə bəzi detalları əldə etməyə nail olub. Belə ki, əsl qarşıdurma əsgərlərin hərbi hissədəki dibçəkdə çətənə kolu becərmələrinin hərbi hissənin komandanlığı tərəfindən müəyyən edilməsindən sonra baş verib.

Əlavə olaraq, əldə edilən məlumatlar əsasında hüquq mühafizə orqanlarının gəldiyi rəyə əsasən hərbi hissədə öz qayda-qanunlarını, davranış tərzini tətbiq etməyə çalışan əsgərlər arasında general övladının da olduğu aydınlaşıb. Nəşr həmin generalın kim olduğunu istintaqa mane olmamaq üçün hələlik ictimailəşdirməyib.

Lakin qiyama cəhd edən əsgərlər əvvəlcə Qafanda, daha sonra işğal altında olan Xankəndidə yerləşən intizam hərbi hissələrinə, oradan da ön xətdə yerləşən bölmələrə aparılıblar. Həmin əsgərlərin valideyinləri Yerevanda hökumət binası qarşısında aksiya keçiriblər, sonra isə Müdafiə Nazirliyinə yollanaraq müdafiə naziri David Tonoyanla görüş tələb ediblər.

### Əsgər anaları övladlarının Qarabağa göndərilməklə cəzalandırılmasına etiraz edirlər

Məsələ ilə bağlı açıqlama verən Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovhannisyan hadisəni törədənlərin cəzalandırılacağını bildirib: “Mətbuatda o qədər də düz əksini tapmayan həmin məsələ ilə bağlı hərbi hissənin yuxarı komandanlığı tərəfindən xidməti araşdırma aparılıb. Araşdırma nəticəsində sıravi əsgərlərlə yanaşı, komandir heyətinin də cəzalandırılması qərara alınıb. Bir neçə zabit tutduğu vəzifəsindən azad olunub”.

Artsrun Ovhannisyan bildirib ki, bir neçə nizam-intizamsız əsgər 1990-cı illərin əxlaqını tətbiq etməklə hərbi hissədə öz qaydalarını yaratmağa, xüsusi şəraitə malik olmağa, ayrıca geyim daşımağa, ayrıca qida qəbulu qaydaları ilə yaşamağa çalışsalar da, zabitlər buna imkan verməyib: “Hadisə ilə bağlı hər şeyi deyə bilmərəm, istintaq aparılır. Ancaq məsələ belədir ki, bir neçə hərbi qulluqçu hərbi hissədə öz qayda-qanunlarını tətbiq etmək istəyiblər. Onların digər hərbi qulluqçulara qarşı təsir nüfuzları olub. Həmin bir neçə hərbi qulluqçu onlara qarşı olan cəza qərarlarını digər hərbi qulluqçularla kütləvi etiraz yolu ilə ləğv etdirməyə çalışıblar. Bunun nəticəsində onlar və etirazın fəal nümayəndələri cəzalandırılıblar”. Onun sözlərinə görə, həmin hərbi qulluqçular əvvəlki xidmət yerlərinə geri qayıtmayacaqlar.

Ovhannisyan bildirib ki, qiyam baş vermiş polkun əsgərlərinin qruplar halında ayrı-ayrı hərbi hissələrə köçürülməsi qaçılmazdır. Çünki belə hərəkətlər birlikdə törədilir və deməli, bu cinayətkar sövdələşməni dağıtmaq lazımdır. Buna etiraz edən əsgər valideynləri ilə Ovhannisyan arasında mübahisə yaranıb. Valideynlər övladlarının Qarabağa göndərilməklə cəzalandırılmasına etiraz ediblər. Ovhannisyan isə deyib ki, əsgərlərin Qarabağa göndərilməsi cəza deyil: “Cəzalandırılıblar nə deməkdir? Bir hərbi hissədən digərinə köçürülmə cəza deyil. Üstəlik onlar təkcə Qarabağa göndərilməyiblər, bütün sərhədyanı hərbi hissələrə paylanıblar. Dördü Berdə, bir neçəsi Sisyana göndərilib”.

Lakin əsgərlərin valideynləri bu cavabla kifayətlənməyiblər. Bildiriblər ki, püşkatma ilə onların övladları Mehridə xidmət etməli olduğu halda Qarabağa göndərilməli deyildi. Ovhannisyan bu zaman özünü saxlaya bilməyib və öz sözləri ilə desək “çox pis cavab” verib: “Əgər kimsə düşünürsə ki, Ermənistanın Qarabağa aidiyyəti yoxdur, səhv edir”.

O əlavə edib ki, qaydaları pozanları təkcə Qarabağa yox, Ermənistan ərazisindəki digər hərbi hissələrə də göndəriblər: “Mən özümü təhqir olunmuş sayıram. Sizin dediyinizə görə, kimsə Qarabağda xidmətə göndərilirsə, deməli, onun sonudur?”

### “Sasna Tsrer” qondarma rejimin müqaviməti ilə qarşılaşdı

Hadisələrin bu səpkidə inkişaf etdiyi məqamda “Sasna Tsrer” radikal erməni qruplaşmasının Dağlıq Qarabağı ətraf rayonlarla birlikdə “Ermənistana birləşdirmək” üçün başlatdıqları imzatoplama kampaniyası Xankəndidəki qondarma rejimin müqaviməti ilə qarşılaşıb. Qondarma rejimi dəstəkləyən üç partiya birgə bəyanatla çıxış edərək bu təşəbbüsə qarşı çıxıblar. Onlar Dağlıq Qarabağın “müstəqilliyini” dəstəkləyiblər.

“Sasna Tsrer” partiyasının Dağlıq Qarabağda martın 18-dən bəri cəmi 230 imza topladığı bildirilir. Partiyanın tərəfdarları hesab edirlər ki, qondarma “dqr” ayrıca vilayət kimi Ermənistanın tərkibinə daxil olmalıdır.

“Sasna Tsrer” Yerevanda Serj Sarkisyanın ətraf rayonların Azərbaycana qaytarılması hesabına sülh variantına hazır olduğu haqda xəbərlərdən sonra 2016-cı ilin yayında polis polkunu ələ keçirən eyni adlı terrorçu qruplaşma tərəfindən yaradılıb. Bu qruplaşmanın əksər üzvləri Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra azadlığa çıxıblar və Ermənistanda “Sasna Tsrer” adlı radikal partiya təsis ediblər. Bu il martın 13-də eyni adlı partiya Dağlıq Qarabağda da qeydiyyatdan keçib. Partiya həm də qatı antirusiya mövqeyi ilə tanınır.

Partiyanın nümayəndəsi Geqam Qriqoryan deyib ki, onların təşəbbüsünə qoşulmaq istəyənlər çoxdur, amma “hakimiyyətin” təqiblərindən ehtiyat edirlər.

### Əsgərlərə hərbi formanı dövlət yox, valideynləri alır

Bu arada Ermənistan ordusu barədə daha bir biabırçı fakt ictimailəşib. Məlum olub ki, hərbi xidmətə göndərilənlər üçün formanı onların valideynləri alırmış. Və bu zaman imkanı yaxşı olan valideynlər övladlarına daha yaxşı, keyfiyyətli forma alıb göndərirlər.

Xatırladaq ki, Ermənistan ordusunda təchizatın bərbad durumda olduğu, hərbi formaların köhnə olduğu barədə xəbərlər bundan əvvəl də yayılmışdı. Elə baş nazir Nikol Paşinyan demişdi ki, Qarabağda xidmət edən oğlu tez-tez evə zəng vurub yemək istəyir. Çünki hərbi hissədə verilən yeməkləri yemək mümkün deyil.

Bütün bunlar bir daha erməni ordusunda hansı əhvali-ruhiyyənin hökm sürdüyünü nümayiş etdirir. Aydındır ki, belə vəziyyət Qarabağ münaqişəsinin gedişinə təsirsiz ötüşməyərək düşmənin mövqeyini daha zəif hala gətirir. Elə bu fonda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın qətiyyətli mövqeyi qarşısında Ermənistan artıq geri çəkilməkdən başqa çıxış yolu olmadığını getdikcə daha aydın surətdə dərk edir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2019-cu İLİN APREL AYINDA VƏTƏNDAŞLARIN QƏBULU**

**C Ə D V Ə L İ**

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 8 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 15 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 22 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 3 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 4 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 3 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 11 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 22 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 18 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 25 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 10 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 24 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 15 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 8 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 17 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 5 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 16 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 23 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 12 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 19 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 5 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18:00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır. Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

| | |
|---|---|
| **Telefonlar:** | (012) 510-99-38 |
| | (012) 510-89-14 |
| | (012) 492-74-05 |

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

## Ermənistan silahlı qüvvələri cəbhənin müxtəlif istiqamətlərində təxribatlara əl atıb

Martın 26-da gün ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində təxribatlara əl atıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, axşam saatlarında düşmən tərəfindən bölmələrimizin mövqelərinin atəşə tutulması nəticəsində cəbhənin Füzuli rayonu istiqamətində Azərbaycan Ordusunun hərbi qulluqçusu Əlləzov Əlləz Ələddin oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir.

Eyni zamanda, Ermənistan mətbuatı Ermənistan-Azərbaycan dövlət sərhədində Azərbaycan tərəfinin guya mühəndis işləri həyata keçirməklə mövqeləri irəli çəkmək cəhdi barədə xəbər yayıb.

Rəsmi olaraq bildiririk ki, verilən bu məlumat həqiqətə uyğun deyil, Ermənistan tərəfinin növbəti təxribatıdır və cəbhədə vəziyyəti gərginləşdirmək məqsədi daşıyır.

Azərbaycan Ordusu bölmələrinin qəti və adekvat tədbirləri nəticəsində düşmənin atəş nöqtələri susdurularaq onun növbəti təxribatlarının qarşısı alınıb.

Hazırda cəbhə xəttində vəziyyət bölmələrimizin tam nəzarəti altındadır.

Forma № 1S

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
5 dekabr 2008-ci il
İ-125 №-li əmri ilə təsdiq edilmişdir

## SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) adı **Bakı Sığorta ASC**
Hesabat dövrü 2018 illik

manatla

| AKTİVLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I. UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 1 647 453,83 | 1 579 558,10 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 324 559,51 | 310 571,76 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | 1 300 000,00 | 2 000 000,00 |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | 1 300 000,00 | 2 000 000,00 |
| sair maliyyə aktivləri | | |
| **İştirak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **3 272 013,34** | **3 890 129,86** |
| **II. QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **22 117,14** | **21 699,07** |
| **Debitor borcları:** | **565 461,72** | **445 734,36** |
| birbaşa sığorta üzrə | 219 872,59 | 244 373,08 |
| **təkrarsığorta əməliyyatları üzrə:** | | |
| - təkrarsığortaçı üzrə | | |
| - təkrarsığortalı üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 60 193,96 | 76 521,27 |
| iddia tələbləri üzrə | 13 594,46 | 13 594,46 |
| işçi heyəti üzrə | 79 607,07 | 43 540,17 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 192 193,64 | 67 705,38 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **6 024 395,16** | **5 448 970,65** |
| kassa | 12 707,32 | 437,12 |
| hesablaşma hesabı | 138 471,72 | 114 121,90 |
| valyuta hesabı | 1 561 109,19 | 766 288,17 |
| depozit hesablar | 4 311 808,40 | 4 567 032,00 |
| sair pul vəsaitləri | 298,53 | 1 091,46 |
| **Qısamüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **93 395,32** | **83 337,66** |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 93 395,32 | 83 337,66 |
| **Sair qısamüddətli aktivlər:** | **12 279,51** | **1 729,98** |
| gələcək hesabat dövrlərinin xərcləri | 1 871,80 | 1 729,98 |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | 10 407,71 | |
| **Sair aktivlər** | **738 464,74** | **662 267,95** |
| ***Cəmi qısamüddətli aktivlər*** | **7 456 113,59** | **6 663 739,67** |
| **CƏMİ AKTİVLƏR** | **10 728 126,93** | **10 553 869,53** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **8 925 439,65** | **8 925 439,65** |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | **177 055,20** | **177 055,20** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 177 055,20 | 177 055,20 |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **- 158 864,99** | **175 556,51** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 262 498,88 | 334 421,50 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | - 68 466,80 | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | - 352 897,07 | -158 864,99 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **8 943 629,86** | **9 278 051,36** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **1 106 619,68** | **973 000,08** |
| Həyat sığortası sahəsi üzrə: | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 1 106 619,68 | 973 000,08 |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | | |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **15 642,67** | **23 688,14** |
| təkrarsığortaçı üzrə | 15 642,67 | 23 688,14 |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **1 122 262,35** | **996 688,22** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **70 162,90** | **54 571,84** |
| əməyin ödənilməsi üzrə | 3 651,12 | 6 787,94 |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | 5 145,47 | 4 742,05 |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 61 366,31 | 43 041,85 |
| **Sair qısamüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | **592 071,82** | **224 558,11** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **662 234,72** | **279 129,95** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1 784 497,07** | **1 275 818,17** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **10 728 126,93** | **10 553 869,53** |
| Qeyd: Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

* Bu sətirlər üzrə məlumatlar balansa daxil edilmir.

Forma № 2S

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
5 dekabr 2008-ci il
İ-125 №-li əmri ilə təsdiq edilmişdir

## SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) adı **Bakı Sığorta ASC**
Hesabat dövrü 2018 illik

*ilin əvvəlindən artan yekunla*

manatla

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **1 052 746,94** |
| birbaşa sığorta üzrə sığorta haqları | 1 024 572,19 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 0,00 |
| sığorta ödənişlərində təkrar sığortaçıların payı üzrə | 21 496,53 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komisyon muzdlar üzrə | 6 678,22 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **123 561,94** |
| **İnvestisiya gəlirləri üzrə** | **730 088,44** |
| **Subroqasiya gəlirləri** | **61 200,39** |
| **Sair gəlirlər** | **141 811,75** |
| **CƏMİ GƏLİRLƏR** | **2 109 409,46** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **421 462,00** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 197 476,07 |
| qaytarılan sığorta haqları üzrə | 14 834,26 |
| tənzimləmə xərcləri | 0,00 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 209 151,67 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | **1 242 771,90** |
| **Sair xərclər** | **27 148,68** |
| **CƏMİ XƏRCLƏR** | **1 691 382,58** |
| **Maliyyə mənfəəti (zərəri)** | **418 026,88** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **418 026,88** |
| **Mənfəət vergisi** | **83 605,38** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **334 421,50** |

Sərbəst auditor
E.E. İbrahimov
İcazə Q/N - SA/328

S.Y. Bakuvi küçəsi 35
AZ 1072, Bakı, Azərbaycan
Tel. : +994 (50) 2255050

### MÜSTƏQİL AUDİTORUN HESABATI

"BAKI SIĞORTA" ASC-nin rəhbərliyinə:

***Müsbət rəy***

Biz, "BAKI SIĞORTA" ASC-nin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (IFRS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

***Müsbət rəy üçün əsaslar***

Mən auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Əsas audit məsələləri***

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Belə məsələlər maliyyə hesabatlarının auditi baxımından və belə maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bir tam kimi nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrıca rəy vermirik. "Müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələdən əlavə, biz aşağıda təsvir edilən məsələləri hesabatda məlumat veriləcək əsas audit məsələləri kimi müəyyən etdik.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik göstərilən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq
Auditor hesabatının davamı

daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və qeydlərə dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi auditorun mühakiməsindən asılıdır. Bu risklər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən, ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Sərbəst Auditor
Elnur İbrahimov
27 mart 2019-cu il

Sərbəst Auditor Elnur Elxan oğlu İbrahimov

---

*Təkrar*

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Şamaxı rayonundakı Mirzə Ələkbər Sabirin Ev-Muzeyi və Xızı rayonundakı Cəfər Cabbarlının Ev-Muzeyinin bədii tərtibat işlərinin satın alınması ilə əlaqədar
## *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT 1** - Şamaxı rayonundakı Mirzə Ələkbər Sabirin Ev-Muzeyinin bədii tərtibat işləri
**LOT 2** - Xızı rayonundakı Cəfər Cabbarlının Ev-Muzeyinin bədii tərtibat işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübə, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanından (Əlaqələndirici şəxs: Məmmədov İsa, əlaqə nömrəsi: 012 493-05-24) E-mail: muzeyinfo@gmail.com** ala bilərlər.

**İştirak haqqı:**
**LOT 1 - 100 manat**
**LOT 2 - 60 manat**
**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **16.04.2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **24.04.2019-cu il saat 17:00-a** qədər **AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25.04.2019-cu il saat 14:00-da AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

*Təkrar*

## Xızı Rayon İcra Hakimiyyətinin Xızı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2019-cu il üçün
## *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT - 1** Avtomobil yollarının əsaslı təmiri
**LOT - 2** Xızı şəhərində abadlıq işləri

Tikinti işləri ilin sonunadək başa çatdırılmalıdır. Tenderdə iştirak etmək üçün iddiaçılar hər LOT üzrə 180 (bir yüz səksən) manat məbləğində pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Tender komissiyasından ala bilərlər.

**Təşkilat: Xızı Y.X.O.**
**Hesab: AZ94AİİB36010019442400201124**
**VÖEN: 7800010811**
**Bank: "Kapital Bank"ın Xızı rayon filialı**
**Kod: 200242**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T.BİK: - AİİBAZ 2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır, tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən sərfəli tender təkliflərinə, yüksək keyfiyyətə, kadr potensialına, analoji işlər üzrə təcrübəsinə, maliyyə və texniki imkanlarına.

İddiaçılar tenderdə iştirak etmək üçün 17 aprel 2019-cu il saat 16:00-a qədər aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının bank sənədi;*
- *iddiaçının son bir ildə maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *iddiaçıların tender təklifləri Azərbaycan dilində tərtib olunmalıdır.*

Tender təklifi 2 nüsxədə (əsli və surəti) tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı ilə birlikdə 25 aprel 2019-cu il saat 16:00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Xızı şəhər İƏD üzrə nümayəndəliyə (Məhəmməd Füzuli küçəsi, 4) təqdim edilməlidir.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender proseduru keçirildiyi tarixdən ən azı 60 bank günü qüvvədə olmaqla tender təklifi ilə birlikdə təqdim olunur. İddiaçıların tender zərfləri 26 aprel 2019-cu il saat 11:00-da Xızı şəhər İƏD üzrə nümayəndəliyində (Məhəmməd Füzuli küçəsi, 4) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

İddiaçılar tender haqqında məlumatları yuxarıda qeyd olunan ünvanda əlaqələndirici şəxs Aslanov Əvəz Qaçay oğlundan ala bilərlər. **Telefon: (023 - 31) 5-03-16**

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

***Azərbaycan Respublikası Baş Prokurorluğunda 2019-cu ildə inventarların, mal-materialların, avadanlıqların satın alınması məqsədilə keçirilən açıq tenderin nəticələrinə görə aşağıdakı hüquqi şəxslər qalib elan olunmuşlar:***

**LOT-1** Dəftərxana ləvazimatlarının satın alınması: "Office Page" MMC
**LOT-2** Təsərrüfat mallarının satın alınması: "Sistems Control Safety" MMC
**LOT-3** Ofis və kabinet mebellərinin satın alınması: "Qardaşlar Mebel-3" MMC
**LOT-4** Avadanlıqların satın alınması: "Ultra Technologies" MMC
**LOT-5** Tikinti materiallarının satın alınması: **Tender baş tutmamışdır.**
**LOT-6** Katriclərin satın alınması: "Caspian Surrlies AZE" MMC
**LOT-7** Geyim formasının satın alınması: "Monolit" MMC

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankına dəvət olunmuş ekspertlər üçün hotelin seçilməsi, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankında keçirilən təlimlər zamanı çay-kofe fasilələrinin təşkil edilməsinə dair keçirilən kotirovka sorğuları üzrə Satınalmalar komissiyasının 12 mart 2019-cu il tarixli qərarına əsasən 1-ci məsələ üzrə "Sapphire" MMC, 2-ci məsələ üzrə isə fiziki şəxs Nurəli Həbib oğlu Məmmədov qalib elan edilmişdir. Qalib şəxslərlə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Satınalmalar komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

---

## İranda təbii fəlakət insan tələfatına və dağıntılara səbəb olmuşdur



İran Prezidenti Həsən Ruhani ordunu leysan yağışlarının törətdiyi və insan tələfatına səbəb olmuş daşqın zonasındakı yaşayış məntəqələrində suyun səviyyəsinin azaldılması üçün bütün qüvvələri səfərbər etməyə çağırmışdır.

Prezident, həmçinin İranın Meteoroloji İdarəsinə əlverişsiz hava şəraiti barədə əhalini vaxtında məlumatlandırmaqla bağlı tapşırıq vermişdir. Ruhaninin dediyinə görə, əhali leysan yağışları başlamazdan 48-72 saat əvvəl bu barədə xəbər tutmalıdır.

Bu arada İslam İnqilabı Keşikçiləri Korpusunun komandanı Məhəmmədəli Cəfəri ölkənin şimal-şərqində yerləşən Gülüstan vilayətinə səfər etmişdir. O bildirmişdir ki, daşqınlardan zərər çəkmiş yaşayış məntəqələrinin sakinlərinə humanitar yardım çatdırılır.

## Türkiyə Mozambik sakinlərinə yardım etdi



Türkiyənin Qırmızı Aypara Komitəsi tropik qasırğa nəticəsində zərər çəkmiş Mozambikin Beyra şəhəri sakinlərinə humanitar yardım etmişdir. Komitənin əməkdaşları Beyra ətrafındakı Muabvi kəndinin sakinlərinə ilkin tələbat əşyaları və gigiyena vasitələri çatdırmışlar.

Mozambikdə tüğyan etmiş "İday" qasırğası və onun törətdiyi daşqınlar nəticəsində 447 nəfər həlak olmuşdur. Çadır şəhərciklərindəki qaçqınların sayı 128 min nəfərə çatmışdır.

Qasırğadan və daşqınlardan Beyra şəhərinin sahilyanı rayonlarının əhalisinin 90 faizi zərər çəkmişdir. 15 min adamın humanitar yardıma ehtiyacı var. Ölkədə vəba xəstəliyinə yoluxma halları və malyariya xəstəliyinin artması qeydə alınmışdır.

Ümumilikdə təbii fəlakətin təsirindən Mozambikdə, Zimbabvedə və Malavidə 1,7 milyon nəfərdən çox adam zərər çəkmişdir.

Mozambik Prezidenti Filipe Nyus çoxsaylı insan tələfatı ilə bağlı ölkədə üçgünlük matəm elan etmişdir.

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi Kərəm Məmmədova anası

**HƏMAYİL DİLBAZİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin dekanlığı, professor-müəllim heyəti Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri, professor Rəbiyyət Aslanovaya qardaşı

**NAZİM MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan-Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyəti, üzvləri və katiblik ATİB-in İdarə Heyətinin sədri Cemal Yangına anası

**ZENNURE YANGININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8567
Sifariş 1015
Qiyməti 40 qəpik